Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 49 (7776) ŞƏNBƏ, 3 mart 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



## Dövlət başçısı göstəriş verdi:

# "Yanğının səbəblərinin araşdırılması ilə bağlı təxirəsalınmaz tədbirlər görülsün"









Martın 2-də Bakı şəhərinin Xətai rayonundakı Respublika Narkoloji Mərkəzində yanğın baş verib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dərhal hadisənin baş verdiyi Respublika Narkoloji Mərkəzinə gələrək vəziyyətlə tanış olub.

Aidiyyəti qurumların rəhbərləri yanğının başvermə səbəbləri və nəticələri barədə dövlət başçısına məlumat verdilər.

Respublika Baş Prokurorluğunun, Fövqəladə Hallar, Daxili İşlər və Səhiyyə nazirliklərinin birgə məlumatına əsasən, yanğın martın 2-də saat 06.10-da beş korpusdan ibarət Respublika Narkoloji Mərkəzinin bir korpusunda baş verib.

Hadisə yerinə dərhal Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin canlı qüvvəsi, texnikası, Səhiyyə Nazirliyinin Təcili Tibbi Yardım xidmətləri, prokurorluq və daxili işlər orqanlarının əməkdaşları cəlb edilib. Ərazinin mühafizəsi və xilasedicilərin maneəsiz fəaliyyəti Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayının və Xətai Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən təmin olunub. Operativ surətdə həyata keçirilən tədbirlərlə korpusda olan 55 nəfərdən 30-u xilas edilib, onlardan 3-ü Səhiyyə Nazirliyinin Respublika Toksikologiya Mərkəzinə yerləşdirilib. Yanğın saat 08:30-da söndürülüb. Hadisə yerinin müayinəsi zamanı 25 nəfərin cəsədi aşkar edilib.

Fakt üzrə Baş Prokurorluq tərəfindən dərhal cinayət işi başlanılıb, həmçinin Baş Prokurorluğun, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb. İlkin araşdırmaların nəticələrinə görə yanğın binanın elektrik şəbəkəsində yaranan nasazlıq səbəbindən baş verib.

Dövlət başçısı hadisənin nəticələrinin tez bir zamanda aradan qaldırılması və yanğının səbəblərinin araşdırılması ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi ilə əlaqədar müvafiq tapşırıqlarını verdi.

Prezident İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısına və səhiyyə nazirinə həlak olanların ailə üzvlərinə kömək göstərilməsi və zərərçəkənlərə təcili olaraq lazımi tibbi yardım edilməsi ilə bağlı göstərişlər verdi.

Həyata keçirilən tədbirlər Azərbaycan Prezidentinin şəxsi nəzarətindədir.

## Həyata keçirilən tədbirlər Azərbaycan Prezidentinin şəxsi nəzarətindədir

Baş Prokurorluq, Fövqəladə Hallar, Daxili İşlər və Səhiyyə nazirlikləri Respublika Narkoloji Mərkəzində baş vermiş yanğınla bağlı birgə məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, məlumatda martın 2-də saat 06.10-da Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Respublika Narkoloji Mərkəzinin birmərtəbəli korpusunda yanğın baş verdiyi bildirilir. Qeyd edilir ki, hadisə yerinə dərhal Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin canlı qüvvəsi, texnikası, Səhiyyə Nazirliyinin Təcili Tibbi Yardım xidmətləri, Prokurorluq və Daxili İşlər orqanlarının əməkdaşları cəlb olunub.

Ərazinin mühafizəsi və xilasedicilərin maneəsiz fəaliyyəti Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayının və Xətai Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən təmin edilib.

Operativ surətdə həyata keçirilmiş tədbirlərlə korpusda olan 55 nəfərdən 30-u xilas edilib, onlardan 3-ü Səhiyyə Nazirliyinin Respublika Toksikologiya Mərkəzinə yerləşdirilib.

Yanğın saat 08.30-da söndürülüb, hadisə yerinin müayinəsi zamanı 25 nəfərin cəsədi aşkar edilib.

Faktla bağlı Baş Prokurorluq tərəfindən dərhal Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb, həmçinin Baş Prokurorluğun, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb.

İlkin araşdırmaların nəticələrinə görə, yanğın binanın elektrik şəbəkəsində yaranmış nasazlıq səbəbindən baş verib.

## Narkoloji Mərkəzin yeni binası yaxın vaxtlarda istifadəyə veriləcək

Respublika Narkoloji Mərkəzinin yeni binasının yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulur.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dörd korpusdan ibarət olan 300 çarpayılıq müəssisə Sabunçu rayonunun ərazisində inşa edilib.

Yeni Narkoloji Mərkəz müayinə və müalicə işini ən yüksək səviyyədə qurmaq üçün müasir avadanlıqla təchiz olunub.

## Narkoloji Mərkəzdən təxliyə olunan şəxslərə lazımi tibbi və psixoloji yardım göstərilir

Martın 2-də səhər saatlarında güclü külək səbəbindən Respublika Narkoloji Mərkəzinin binasında qısaqapanma nəticəsində yanğın baş verib. Hadisə yerinə yanğınsöndürmə maşınları və Səhiyyə Nazirliyinin 10-a yaxın təcili tibbi yardım briqadası cəlb edilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, xəstəxanada müalicə alan və tibbi heyətdən ibarət 200 nəfərdən artıq adam, o cümlədən yanğın baş verən korpusda 55 nəfərin olduğu müəyyən edilib. Onların əksəriyyəti vaxtında təxliyə olunub. Təxliyə olunan şəxslərə hazırda lazımi tibbi və psixoloji yardım göstərilir.

Həyata keçirilmiş bütün zəruri tədbirlərə baxmayaraq, yanğının nisbətən güclü sahəsində 25 nəfərin həyatını xilas etmək mümkün olmayıb.

Dünyasını dəyişənlərin ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk.

## Ermənistanın yeni prezidenti seçildi

### Yerevanda vəziyyət gərginləşir, hakim rejim istefaya çağırılır

Dünən Ermənistan parlamenti gizli səsvermə ilə yeni prezident seçmişdir. Bu, gözlənildiyi kimi, yeganə namizəd 64 yaşlı Armen Sarkisyandır. Bir müddət əvvəl onun namizədliyini prezident Serj Sarkisyan, hakim Respublikaçılar partiyası və "Daşnaksütyun" fraksiyası irəli sürmüşdür. Parlamentdə 90 deputat A.Sarkisyanın lehinə, 10-u isə əleyhinə səs vermişdir.

Armen Sarkisyan 1953-cü ildə Yerevanda anadan olmuşdur. Ermənistanın Britaniyadakı səfiri olub, ölkəni Avropa qurumlarında təmsil edib. 1996-1997-ci illərdə Ermənistanın baş naziri vəzifəsində çalışıb.

Yeni prezident aprelin 9-da vəzifəsinin icrasına başlayacaq. Həmin gün Serj Sarkisyanın səlahiyyət müddəti bitəcək və parlament bütün hakimiyyəti əlində cəmləşdirəcək baş nazirin adını açıqlayacaq. Hökumət istefaya göndəriləcək, yeni Nazirlər Kabineti mayın 1-dən 10-dək formalaşdırılacaq.

Prezident yeddi il müddətinə seçilir və bu vəzifədə ancaq bir müddət qala bilər. O, heç bir partiyanın üzvü olmamalı, digər fəaliyyətlə, o cümlədən sahibkarlıqla məşğul olmamalıdır. Əslində A.Sarkisyan formal prezident olacaq, reallıqda isə bütün səlahiyyətlər baş nazirə verilir. Bütün bu oyunlar da ona xidmət edir ki, aprelin 9-da Serj Sarkisyan bütün hakimiyyəti ələ keçirərək hökumət başçısı olsun.

Ermənistan müxalifəti son günədək prezident seçkilərinin ümumxalq səsvermə yolu ilə keçirilməsini təkid edirdi. Lakin Konstitusiya Məhkəməsinə müraciət üçün bununla bağlı 21 deputatın imzası lazım idi. Müxalifət isə bunu edə bilmədi.

Ardı 7-ci səh.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Bakı şəhərindəki Respublika Narkoloji Mərkəzində baş vermiş yanğının faciəli nəticələri ilə əlaqədar dərin hüznlə başsağlığımı qəbul edin.

Xahiş edirəm, həlak olanların ailələrinin dərdlərinə şərik olduğumu və onlara səbir dilədiyimi, bütün zərərçəkənlərin isə tezliklə sağalmasını arzuladığımı bildirəsiniz.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

*Moskva, Kreml, 2 mart 2018-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Bakı şəhərində yanğın nəticəsində çoxsaylı insanın həlak olması barədə xəbəri dərin hüznlə qarşıladım.

Qardaş Azərbaycan xalqının dərdinə şərik olduğumu bildirir, həlak olanların doğmalarına və yaxınlarına öz adımdan və Qazaxıstan xalqı adından başsağlığı verirəm.

Xəsarət alanların tezliklə sağalmasını arzu edirəm.

*Dərin hüznlə,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli Prezident!

Bakıda müalicə mərkəzində baş verən yanğında çox sayda Azərbaycan vətəndaşının həlak olması xəbərini böyük kədər hissi ilə qarşıladım.

Xalqım, hökumətim adından və şəxsən öz adımdan həlak olanlara Allahdan rəhmət, yaralananlara şəfa diləyirəm. Qardaş Azərbaycanın kədərini ürəyimizin ən dərinliyində hiss edirik.

Fürsətdən istifadə edib, Sizə cansağlığı, qardaş Azərbaycan xalqına rifah diləyirəm.

*Hörmətlə,*

***Binəli YILDIRIM,***
***Türkiyə Respublikasının Baş naziri***

## Respublika Narkoloji Mərkəzində baş vermiş yanğın ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci il martın 2-də Bakı şəhəri, Xətai rayonu, Zığ şosesi 13 ünvanında yerləşən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan Respublika Narkoloji Mərkəzində yanğın baş vermiş, nəticədə həlak olanlar və yaralananlar vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq baş vermiş faciənin səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədi ilə **qərara alıram:**

1. Respublika Narkoloji Mərkəzində baş vermiş yanğınla əlaqədar aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Komissiyanın sədri**

Abid Şərifov - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikasının daxili işlər naziri
Azərbaycan Respublikasının fövqəladə hallar naziri
Azərbaycan Respublikasının Baş prokuroru
Azərbaycan Respublikasının səhiyyə naziri
Azərbaycan Respublikasının maliyyə naziri
Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri
Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi
Bakı Şəhər İcra Hakimiyyətinin başçısı
Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçısı

2. Dövlət Komissiyası:

2.1. hadisənin baş verməsi səbəblərini və şəraitini araşdıraraq onun nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər müəyyənləşdirsin və həyata keçirsin;

2.2. hadisə nəticəsində zərər çəkənlərə və həlak olanların ailə üzvlərinə maddi və digər zəruri yardım göstərilməsini təmin etsin;

2.3. yanğın nəticəsində xəsarət alanların müalicəsini təmin etsin;

2.4. Mərkəzin işçilərinin və müalicə alanların müvəqqəti yerləşdirilməsi ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

2.5. Mərkəzin yeni binasının tikintisi ilə bağlı işlərin tamamlanmasını qısa müddət ərzində təmin etsin;

2.6. görülmüş işlər haqqında mütəmadi məlumat versin.

3. Azərbaycan Respublikası Baş Prokurorluğu Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri ilə birlikdə baş vermiş yanğın hadisəsinin səbəblərinin araşdırılması və təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi üçün təxirəsalınmaz istintaq tədbirlərini həyata keçirsinlər.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 mart 2018-ci il*

# "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3, maddə 127) aşağıdakı məzmunda 16-cı maddə əlavə edilsin:

**"Maddə 16. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma ödənilən haqq**

Elektrik və istilik enerjisi istehsalçıları tərəfindən müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma haqq ödənilir. Haqqın məbləği və ödənilmə qaydası müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2018-ci il*

# "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 995-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 995-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin adında, birinci və ikinci (birinci halda) cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin qanunun 16-cı maddəsinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Energetika Nazirliyi həyata keçirir;

3.3. həmin qanunun 16-cı maddəsinin adında və birinci cümləsində "qurum" dedikdə Enerji Məsələlərini Tənzimləmə Agentliyi nəzərdə tutulur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2018-ci il*

# "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 563; 2004, № 7, maddə 505; 2007, № 5, maddə 442; 2009, № 10, maddə 768; 2010, № 5, maddə 374; 2011, № 4, maddə 262, № 12, maddə 1091; 2015, № 11, maddə 1251; 2016, № 12, maddə 1991; 2017, № 6, maddə 1018) aşağıdakı məzmunda 21-1-ci maddə əlavə edilsin:

**"Maddə 21-1. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma ödənilən haqq**

Qaz istehsalçıları, təchizatçıları və paylayıcılar tərəfindən müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma haqq ödənilir. Haqqın məbləği və ödənilmə qaydası müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2018-ci il*

# "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 994-VQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 994-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 576; 2001, № 10, maddə 640; 2003, № 10, maddə 585; 2004, № 7, maddə 526; 2007, № 6, maddə 601; 2011, № 4, maddə 291) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 21-1-ci maddəsinin adında, birinci və ikinci (birinci halda) cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

3.2. üçüncü abzasda "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin qanunun" sözləri ilə əvəz edilsin;

3.3. aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"həmin qanunun 21-1-ci maddəsinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Energetika Nazirliyi həyata keçirir;";

3.4. yeddinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"həmin qanunun 21-1-ci maddəsinin adında və birinci cümləsində "qurum" dedikdə Enerji Məsələlərini Tənzimləmə Agentliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2018-ci il*

# "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 759-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 169; 2002, № 5, maddə 237; 2004, № 2, maddə 57, № 4, maddə 202, № 6, maddə 398; 2007, № 11, maddə 1048; 2015, № 10, maddə 1098; 2016, № 11, maddə 1750; 2017, № 5, maddə 683, № 11, maddə 1950; Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 925-VQD nömrəli Qanunu) 25-ci maddəsinin ikinci və üçüncü hissələrində "pullu" sözü "ödənişli" sözü ilə əvəz edilsin və dördüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Sudan ödənişli istifadə qaydaları Azərbaycan Respublikasının Su Məcəlləsinin 97-ci maddəsinə uyğun olaraq müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2018-ci il*

# "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 603; 2006, № 6, maddə 482; 2007, № 8, maddə 745; 2008, № 3, maddə 154; 2009, № 12, maddə 948; 2011, № 11, maddə 983; 2012, № 6, maddə 509, № 7, maddə 668, № 11, maddə 1053; 2013, № 6, maddələr 607, 623, № 7, maddə 791, № 12, maddə 1484; 2014, № 1, maddə 7, № 2, maddə 97, № 6, maddələr 597, 604; 2015, № 3, maddə 255; 2016, № 4, maddə 645, № 6, maddə 990, № 7, maddə 1244, № 11, maddələr 1770, 1775; 2017, № 5, maddə 738, № 6, maddə 1037, № 10, maddə 1772, № 11, maddə 1954; Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 872-VQD nömrəli Qanunu) 20.3-cü maddəsinə "İpotekanın" sözündən sonra "dövlət" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2018-ci il*

# "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 1000-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 1000-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2018-ci il*

# "Energetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Energetika haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 53; 2006, № 8, maddə 657) aşağıdakı məzmunda 7-1-ci maddə əlavə edilsin:

**"Maddə 7-1. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma ödənilən haqq**

Enerji istehsalçıları, ötürücülər, paylayıcılar və təchizatçılar tərəfindən müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma haqq ödənilir. Haqqın məbləği və ödənilmə qaydası müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2018-ci il*

# "Energetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 992-VQD nömrəli Qanununun tətbiqi və "Energetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 1 fevral tarixli 85 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Energetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 992-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Energetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Energetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Energetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 1 fevral tarixli 85 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 69; 2003, № 10, maddə 582; 2007, № 6, maddə 601, № 8, maddə 769; 2010, № 10, maddə 857; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 10, maddə 1216; 2016, № 8, maddə 1384) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Energetika haqqında" Azərbaycan Respublikası Qanununun 7-1-ci maddəsinin adında, birinci və ikinci (birinci halda) cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

3.2. üçüncü abzasda "Energetika haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin qanunun" sözləri ilə əvəz edilsin;

3.3. altıncı abzasa "Qanunun" sözündən sonra "7-1-ci maddəsinin ikinci cümləsində (ikinci halda)," sözləri əlavə edilsin;

3.4. aşağıdakı məzmunda on birinci abzas əlavə edilsin:

"həmin qanunun 7-1-ci maddəsinin adında və birinci cümləsində "qurum" dedikdə Enerji Məsələlərini Tənzimləmə Agentliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2018-ci il*

# "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 997-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 997-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

## “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 607; 2005, № 10, maddə 905; 2008, № 8, maddə 701; 2014, № 6, maddə 620; 2015, № 2, maddə 93, № 11, maddə 1255, № 12, maddə 1442; 2016, № 8, maddə 1367; 2017, № 6, maddə 1059) 14-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. ikinci hissəyə “hesablanır” sözündən sonra “(bu maddənin dördüncü hissəsində nəzərdə tutulan hal istisna olmaqla)” sözləri əlavə edilsin.

2. dördüncü-doqquzuncu hissələr müvafiq olaraq beşinci-onuncu hissələr hesab edilsin və aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

“Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda keçmiş SSRİ vətəndaşının pasportu və ya digər sənəd əsasında 2006-cı il yanvarın 1-dək Azərbaycan Respublikasına gələrək burada daimi yaşayan, heç bir dövlətin vətəndaşlığına mənsub olmayan və şəxsiyyətini təsdiq edən etibarlı sənədləri olmayan şəxsin heç bir dövlətin vətəndaşlığına mənsub olmaması, habelə Azərbaycan Respublikasında daimi yaşaması faktı məhkəmə tərəfindən müəyyən edilir. Bu müddəa könüllü olaraq mənsub olduğu dövlətin vətəndaşlığından çıxmış şəxslərə şamil edilmir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2018-ci il*

## “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 980-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 980-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin qanunun 2-ci maddəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi barədə qanun layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

## “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 363; 2001, № 11, maddə 696; 2002, № 12, maddə 709; 2003, № 1, maddə 12; 2006, № 8, maddə 657; 2008, № 5, maddə 348; 2009, № 10, maddə 768; 2010, № 5, maddə 374; 2011, № 4, maddə 261, № 12, maddə 1090; 2016, № 12, maddə 1990) aşağıdakı məzmunda 4-1-ci maddə əlavə edilsin:

**“Maddə 4-1. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma ödənilən haqq**

Enerji istehsalçıları və enerji təchizatı müəssisələri tərəfindən müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma haqq ödənilir. Haqqın məbləği və ödənilmə qaydası müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2018-ci il*

## “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 993-VQD nömrəli Qanununun tətbiqi və “Elektroenergetika haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 993-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Elektroenergetika haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 384; 2003, № 10, maddə 582; 2007, № 2, maddə 87, № 6, maddə 601, № 8, maddə 769; 2008, № 8, maddə 719; 2010, № 10, maddə 848; 2011, № 4, maddə 290; 2012, № 10, maddə 953; 2013, № 11, maddə 1334; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 10, maddə 1209; 2016, № 8, maddə 1384; 2017, № 7, maddə 1373) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

“Elektroenergetika haqqında” Azərbaycan Respublikası Qanununun 4-1-ci maddəsinin adında, birinci və ikinci (birinci halda) cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;”;

3.2. üçüncü abzasda “Elektroenergetika haqqında” Azərbaycan Respublikası Qanununun” sözləri “həmin qanunun” sözləri ilə əvəz edilsin;

3.3. aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

“həmin qanunun 4-1-ci maddəsinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Energetika Nazirliyi həyata keçirir;”;

3.4. on üçüncü abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on dördüncü abzas əlavə edilsin:

“həmin qanunun 4-1-ci maddəsinin adında və birinci cümləsində “qurum” dedikdə Enerji Məsələlərini Tənzimləmə Agentliyi nəzərdə tutulur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2018-ci il*

## “Bələdiyyələrin su təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 15-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 759-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Bələdiyyələrin su təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 519; 2005, № 4, maddə 271; 2007, № 10, maddə 938; 2008, № 6, maddə 460; 2016, № 1, maddə 23) 10-cu maddəsinin adında, 10.1-ci, 10.2-ci və 10.3-cü maddələrində “pullu” sözü “ödənişli” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2018-ci il*

## “Bələdiyyələrin su təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 998-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Bələdiyyələrin su təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 998-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Bələdiyyələrin su təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Bələdiyyələrin su təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

## “Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789; Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1746 nömrəli və 22 dekabr tarixli 1753 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 11-1-ci, 28-1-ci, 31-1-ci, 54-1-ci, 55-1-ci, 66-1-ci və 73-1-ci hissələr əlavə edilsin:

“11-1. Məcəllənin 185-188-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi adından - Agentliyin İdarə Heyətinin sədri, idarə heyətinin üzvləri, aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.”;

“28-1. Məcəllənin 379-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

28-1.1. fərdi məlumatların informasiya sistemlərinə münasibətdə - bu siyahının 26-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

28-1.2. digər informasiya sistemlərinə münasibətdə - bu siyahının 28-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.”;

“31-1. Məcəllənin 394-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi adından - Komitənin sədri, onun müavinləri, aparatın rəhbəri, şöbə müdiri.”;

“54-1. Məcəllənin 515.0.2 - 515.0.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

54-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından - bu siyahının 36.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

54-1.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından - bu siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.”;

“55-1. Məcəllənin 517-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

55-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından - bu siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

55-1.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti adından - bu siyahının 28-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.”;

“66-1. Məcəllənin 552-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində törədilən inzibati xətalar istisna olmaqla) haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından - bu siyahının 26-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.”;

“73-1. Məcəllənin 602.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

73-1.1. yoxlayıcı orqanlara (yoxlayıcılara) münasibətdə yuxarı dövlət orqanının rəhbəri, onun müavini, aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, baş məsləhətçi, böyük məsləhətçi;

73-1.2. yoxlayıcı orqanlara (yoxlayıcılara) münasibətdə yuxarı dövlət orqanının olmadığı hallarda Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından - bu siyahının 44.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.”;

1.2. 23-cü hissədə “286-cı maddəsində” sözləri “286 və 459-1-ci maddələrində” sözləri ilə əvəz edilsin;

1.3. 26-cı hissəyə “369” rəqəmlərindən əvvəl “325.1, 326,” rəqəmləri əlavə edilsin;

1.4. 41.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 41.4-cü bənd əlavə edilsin:

“41.4. audiovizual əsərlərə, fonoqramlara, kompüter proqramlarına, məlumat toplularına, kitab nüsxələrinə münasibətdə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi adından - bu siyahının 11-1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.”;

1.5. 48.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 48.4-cü bənd əlavə edilsin:

“48.4. audiovizual əsərlərə, fonoqramlara, kompüter proqramlarına, məlumat toplularına, kitab nüsxələrinə münasibətdə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi adından - bu siyahının 11-1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.”;

1.6. 54-cü hissədə “515” rəqəmləri “515.0.1” rəqəmləri ilə əvəz edilsin;

1.7. 55-ci hissə üzrə:

1.7.1. 55.1-ci bəndə “Azərbaycan Respublikasının” sözlərindən və 55.2-ci bəndə “yerli icra hakimiyyəti” sözlərindən əvvəl “inzibati xətanı aşkar etmiş” sözləri əlavə edilsin;

1.7.2. 55.2-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 55.3-cü bənd əlavə edilsin:

“55.3. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından - bu siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

## “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685; 2012, № 3, maddə 197, № 4, maddə 289, № 6, maddə 532; 2016, № 1, maddə 76, № 11, maddələr 1804, 1828, № 12, maddə 2086; 2017, № 7, maddə 1360, № 10, maddə 1800, № 12, maddə 2313) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2-ci bənddə “29.0.15-ci,” sözlərindən sonra “29.0.16-cı (“Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət tərəfindən yaradılan ali təhsil müəssisələrinin nizamnamələrinin, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, təsdiq edilməsi üzrə),” sözləri əlavə edilsin;

1.2. 2.8-ci bənddə “29.0.16-cı” sözlərindən sonrakı mötərizədə “nizamnamələri Azərbaycan Respublikasının Prezidenti” sözlərindən sonra “və Azərbaycan Respublikasının Nazirlər Kabineti” sözləri əlavə edilsin;

1.3. 2.11-ci bəndin sonundakı nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.12-ci bənd əlavə edilsin:

“2.12. “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət tərəfindən yaradılan ali təhsil müəssisələrinin təsisçisinin:

2.12.1. nizamnamənin təsdiq edilməsi və nizamnamə fondunun miqdarının müəyyən olunması üzrə səlahiyyətlərini, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti;

2.12.2. strukturun təsdiq edilməsi, inkişaf istiqamətlərinin müəyyən edilməsi, illik maliyyə hesabatlarının təsdiq edilməsi, təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi, xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri publik hüquqi şəxsin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına razılıq verilməsi üzrə səlahiyyətlərini tabeliyində dövlət ali təhsil müəssisələri yaradılan icra hakimiyyəti orqanları həyata keçirirlər.”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2018-ci il*

# Moskvada MDB İqtisadi Şurasının 77-ci iclası keçirilib

Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) İqtisadi Şurasının 77-ci iclası keçirilib. İclasda Azərbaycanı Baş nazirin birinci müavini Yaqub Eyyubov təmsil edib.



AZƏRTAC xəbər verir ki, iclasın gündəliyinə MDB ölkələrinin iqtisadiyyat sahəsində qarşılıqlı fəaliyyəti ilə bağlı geniş məsələlər daxil olub. İclas iştirakçıları MDB Hökumət Başçıları Şurasının müzakirəsinə təqdim ediləcək bir sıra sənədlərin layihələrini bəyəniblər. Söhbət Birlik dövlətlərinin intellektual mülkiyyət bazarının formalaşması və inkişafı haqqında sazişin, Dövlətlərarası standartlaşdırmaya aid sənədlərin yayılması haqqında sazişin, Energetikanın innovasiyalı inkişafı və qabaqcıl energetika texnologiyalarının işlənib hazırlanması sahəsində MDB ölkələrinin əməkdaşlığı konsepsiyasının və bu konsepsiyanın reallaşdırılması ilə bağlı Təxirəsalınmaz Tədbirlər Planının, habelə 2025-ci ilə qədər olan dövr üçün quduzluğun profilaktikası və ona qarşı mübarizə sahəsində MDB ölkələrinin Birgə Fəaliyyəti Kompleksinin layihələrindən gedir.

İqtisadi Şura xidmətlərin azad ticarəti barədə sazişin layihəsi üzərində işi davam etdirmək üçün Birlik ölkələrinin iqtisadiyyat nazirlərindən (nazir müavinlərindən) ibarət yüksək səviyyəli işçi qrup yaradılmasını qərara alıb və 2018-ci il üçün həmin qrupun iclaslarının qrafikini təsdiq edib.

İclas iştirakçıları 2018-2020-ci illər üçün Qazaxıstan Materialşünaslıq Tokamakında elmi tədqiqatlar proqramını təsdiq ediblər.

İqtisadi Şuranın qərarı ilə Rusiya Federal Nüvə və Radiasiya Təhlükəsizliyi Mərkəzinə MDB iştirakçıları olan dövlətlərin işlənilmiş nüvə yanacağı, radioaktiv tullantılarla davranış və nüvə-radiasiya təhlükəli obyektlərin istismardan çıxarılması məsələləri üzrə baza təşkilatı statusu verilib.

İqtisadi Şura məhsulların və xidmətlərin keyfiyyəti sahəsində qazanılmış nailiyyətlərə görə 2017-ci ilin Müstəqil Dövlətlər Birliyi Mükafatı üzrə müsabiqənin Münsiflər Heyətinin təqdimatını nəzərdən keçirərək Birlik ölkələrinin bir sıra idarə və müəssisələrinə bu mükafatın laureatları və diplomantları adları verilməsini qərara alıb.

İclasda bir sıra büdcə-maliyyə məsələləri və təşkilati məsələlər də müzakirə olunub.

MDB İqtisadi Şurasının növbəti iclasını cari ilin iyun ayında Moskvada keçirmək nəzərdə tutulub.

# ADA Universitetində "Karyera həftəsi" yekunlaşıb

ADA Universitetində bu ali məktəbin Karyera Mərkəzinin təşəbbüsü ilə fevralın 27-dən keçirilən altıncı "Karyera həftəsi" başa çatıb.




AZƏRTAC xəbər verir ki, bununla bağlı martın 2-də universitetdə "Karyera həftəsi"nin yekun tədbiri və "Karyera yarmarkası" keçirilib.

"Kapital Bank" və "Azersun Holding" şirkətlər qrupunun dəstəyi ilə həftə ərzində müxtəlif sahələrdə fəaliyyət göstərən yüzdən çox şirkətin nümayəndələri universitetdə tələbə və məzunlar üçün təqdimatlar keçirib, gənclərdə məşğulluq bazarı barədə təsəvvür yaradıb, onlara karyerada uğurqazanma ilə bağlı məsləhətlər verib və işçi qüvvəsi axtarıblar.

"İstedadlarla karyera yolları arasında körpü" devizi altında keçirilən "Karyera yarmarkası"nda iki mindən çox tələbə və məzun şirkətlərin insan resursları nümayəndələri ilə bilavasitə ünsiyyətdə olub, mövcud iş yerlərinə sənəd vermək imkanı qazanıblar. Həmçinin tələbələr Azərbaycanın iş bazarındakı ən aparıcı qurumlarının təmsilçiləri ilə təmasda olub, dövlət və özəl sektorda insan kapitalı ehtiyacı barədə aydın təsəvvür əldə ediblər. "Karyera yarmarkası"nda şirkətlər səkkiz yüzdən çox iş və staj-keçmə imkanları təqdim ediblər.

ADA Universitetinin Karyera Mərkəzi tələbələri birinci kursdan başlayaraq məşğulluq bazarı ilə tanış edir, ixtisasları üzrə müxtəlif dövlət və fərdi qurumlarda staj təcrübəsi qazanmağa yönləndirir. Əksər tələbələr staj təcrübəsi topladıqları qurumlarda iş təklifi alırlar. Bunun nəticəsi olaraq universitetin məzunları arasında məşğulluq göstəricisi 90 faizə çatır.

"Karyera həftəsi" çərçivəsində ilk dəfə ADA Universiteti onun ən çox sayda tələbə və məzunlarını işə qəbul edən 13 qurumu, o cümlədən Xarici İşlər Nazirliyi, SOCAR, Maliyyə Nazirliyi, Dövlət Neft Fondu, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı və "Azərkosmos" ASC-ni mükafatlandırıb.

Mükafatları ADA Universitetinin rektoru Hafiz Paşayev təqdim edib.

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

Martın 2-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın fevralın 24-də və 27-də keçirilmiş iclaslarının protokolları təsdiq edilib.

Sonra aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişin mətni, forması, sayı və hazırlanma qaydası ilə bağlı məsələyə baxılıb.

Qeyd edək ki, bildirişdə seçicinin adı, özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı, səsvermənin yeri və vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı, həmçinin səsvermə qaydaları ətraflı şəkildə əks olunur. Komissiya üzvlərinin müzakirəsindən sonra səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair 5347803 (beş milyon üç yüz qırx yeddi min səkkiz yüz üç) bildirişin mətbəə üsulu ilə hazırlanmasına qərar verilib.

İclasda aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyinin irəli sürülməsi təsdiq olunmuş Tural Feyruz oğlu Abbaslı tərəfindən təqdim edilmiş səlahiyyətli nümayəndələr də qeydə alınıb.

Komissiyanın iclasında, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

**Qərar № 8/50**

### Mərkəzi Seçki Komissiyasının 24 fevral və 27 fevral 2018-ci il tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 24 fevral və 27 fevral 2018-ci il tarixli iclaslarının protokolları təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*02.03.2018*

**Qərar № 8/51**

### 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin mətni, forması, sayı və hazırlanması Qaydası haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 104.1-ci maddəsinə əsasən məntəqə seçki komissiyaları səsvermənin yeri və vaxtı haqqında seçiciləri xəbərdar etməlidirlər.

Mərkəzi Seçki Komissiyasının 5 iyun 2013-cü il tarixli 5/28 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermənin yeri və vaxtı barədə bildirişlərin seçicilərə paylanması (çatdırılması) Qaydaları"nın 2.1-ci bəndinə uyğun olaraq bildirişin mətni, forması, sayı və hazırlanmasına dair tələblər Mərkəzi Seçki Komissiyasının qərarı ilə səsvermə gününə ən azı 40 gün qalmış təsdiq edilməli və müəyyən olunmuş formada və sayda poliqrafiya müəssisəsində hazırlanmalıdır.

Ona görə də seçicinin soyadı, adı, atasının adı ilə yanaşı, özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı haqqında, səsvermənin yeri və vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı, səsvermə qaydaları və s. bu kimi maarifləndirmə xarakterli məlumatları da özündə əks etdirən bildiriş nümunəsinin hər bir seçicinin ünvanına çatdırılması üçün respublika üzrə daimi seçici siyahılarına daxil edilmiş seçicilərin sayı nəzərə alınmaqla, həmin saydan təqribən 3% artıq olmaqla mətbəə üsulu ilə hazırlanması məqsədəmüvafiqdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.6-cı, 25.2.11-ci, 28.2-ci, 28.4-cü və 104.1-ci maddələrinə və yuxarıda göstərilən qaydaların 2.1-ci bəndinə əsasən **qərara alır:**

1. 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişin mətni və forması təsdiq edilsin.
2. Səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin sayı 5 347 803 (beş milyon üç yüz qırx yeddi min səkkiz yüz üç) ədəd müəyyən edilərək mətbəə üsulu ilə hazırlansın.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*02.03.2018*

**Qərar № 8/52**

### 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi təsdiq olunmuş Tural Feyruz oğlu Abbaslının səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi təsdiq olunmuş Tural Feyruz oğlu Abbaslı səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxsin qeydə alınması üçün müvafiq sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxsin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə əsasən **qərara alır:**

1. 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində Şamil Zahir oğlu Beydullayev Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi təsdiq olunmuş Tural Feyruz oğlu Abbaslının səlahiyyətli nümayəndəsi kimi qeydə alınsın.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*02.03.2018*

**Qərar № 8/53**

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Xanış Alış oğlu Qarayev 63 saylı Sabirabad birinci, Orxan Möhübbət oğlu Həsənov 74 saylı Lənkəran kənd, Arslan Bakir oğlu Ağayev 81 saylı Beyləqan seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.
2. Nigar Qulamirzə qızı Fərəcova 74 saylı Lənkəran kənd seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*02.03.2018*

# Vergi xidmətinin qarşısında duran vəzifələrin icrası ilə əlaqədar iclas keçirilib

Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxslərinin və yerli vergi orqanlarının rəhbərlərinin iştirakı ilə geniş tərkibli iclas keçirilib.






Vergilər Nazirliyinin media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, vergilər naziri Mikayıl Cabbarov vergi orqanlarının fəaliyyətində yeni yanaşmalar və vergi xidmətinin qarşısında duran vəzifələrin icrası, vergi əməkdaşlarının fəaliyyətinə yeni tələblər, vergi orqanlarına etimadın yüksəldilməsi və digər məsələlərlə bağlı çıxış edib.

Qeyd olunub ki, müasir dövrdə vergi siyasəti yalnız fiskal funksiyaları yerinə yetirmir, o həm də iqtisadi inkişafın bir alətidir. Bu baxımdan vergi orqanlarının fəaliyyəti sahibkarlığın inkişafına dəstək verməlidir. Bu xüsusda vergi orqanlarının əməkdaşlarına olan tələblər daha da artır. Vergi sisteminin ən əsas dəyərinin zəngin maddi-texniki baza, müasir IT texnologiyalarına əsaslanan iş üsullarına malik olması deyil, bu sistemdə çalışan insanlar olduğunu ön plana çəkən nazir vergi xidmətində peşəkar və ləyaqətli kadrlara üstünlük veriləcəyini, insan resurslarının inkişaf etdirilməsi üçün addımlar atılacağını, vergi əməkdaşlarının yüksək səviyyəli xidmət göstərməsi üçün onlara normal iş rejiminin təmin ediləcəyini vurğulayıb.

Vergi əməkdaşlarından yüksək peşəkarlığın, işgüzar etikanın, vergi ödəyicisinə yanaşmada öz məsuliyyətini dərk etmələrinin tələb olunduğunu qeyd edən vergilər naziri bütövlükdə vergi sisteminə qarşı hörmət və inamın artırılması üçün çox çalışmaq lazım gəldiyini, güclü dövlətin vətəndaşı və qulluqçusu olmağın digər üstünlüklər əldə etməkdən daha vacib və şərəfli olduğunu bildirib.

Vergi ödəyiciləri ilə münasibətlərin qarşılıqlı hörmət və etimada əsaslanmalı olduğunun vacibliyini diqqətə çatdıran nazir bir daha vurğulayıb ki, ilk növbədə vergi uçotunun dəqiq aparılmasını, auditin real funksiyasının bərpa olunmasını, vergilərin yığılmasından vergilərin ödənilməsinə keçidin təmin edilməsini, vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin və spektrinin müasir tələblərə uyğun olaraq genişləndirilməsini təmin etmək lazımdır.

M.Cabbarov qeyd olunan məsələlərlə bağlı yerlərdə görüşlər keçirilməsi və onların mahiyyətinin vergi ödəyicilərinə çatdırılması barədə tapşırıq verib.

# Milli Məclisdə UNICEF-in regional məsləhətçiləri ilə görüş olub

Martın 2-də Milli Məclisin komitə sədrləri Hadi Rəcəbli və Aqiyə Naxçıvanlı UNICEF-in regional məsləhətçiləri Aron Qrinberq və xanım Joanne Bosvort ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli Azərbaycanla UNICEF arasında sıx əlaqələrin mövcud olduğunu bildirib. Qeyd edib ki, ölkəmizdə uşaq hüquqlarına hörmətlə yanaşılır, onların sağlamlığı, təhsili, təhlükəsizliyinin təmin edilməsi istiqamətində əhəmiyyətli işlər görülür. Ulu öndər Heydər Əliyevin zamanında uşaqların sağlam, xoşbəxt böyüməsi üçün dövlət səviyyəsində mühüm layihələr həyata keçirilib və bu işlər Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Ölkəmizdə ailə, qadın, uşaq problemləri sahəsində dövlət siyasətini həyata keçirən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Milli Məclis UNICEF-lə səmərəli əməkdaşlıq edir. Vaxtilə parlamentimizdə UNICEF-in yubileyinə həsr olunmuş tədbir keçirilib.

Qeyd edilib ki, Azərbaycan uşaq hüquqları ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşulub, bu sahədə qanunvericilik bazası xeyli təkmilləşib. Parlamentdə uşaq hüquqlarının təmin edilməsi istiqamətində yeni qanunlar qəbul olunub. Milli Məclisdə qəbul olunmuş və uşaqların sağlamlığının qorunmasına xidmət edən "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" qanun MDB məkanında model qanun kimi tövsiyə edilib. Valideyn himayəsindən məhrum olmuş uşaqlara xüsusi diqqət yetirilir, onların təhsil haqqı dövlət tərəfindən ödənilir və bu, qanunvericiliklə tənzimlənir. Bir neçə il əvvəl ölkəmizdə "Uşaq Parlamenti" yaradılıb. Milli Məclisdə uşaqlara həsr olunmuş və onların iştirakı ilə mütəmadi olaraq bir çox tədbirlər həyata keçirilir. Beşinci çağırış Milli Məclisdə bir sıra yeni komitələr yaranıb. Bu komitələrdən biri də Ailə, qadın və uşaq məsələləri komitəsidir. Bu, bir daha onu göstərir ki, ailə, qadın və uşaq problemlərinin həlli dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı təmsil etdiyi sahəyə olan diqqət və qayğının yüksək səviyyədə olduğunu bildirib. O qeyd edib ki, rəhbərlik etdiyi komitə ailə münasibətləri, qadın və uşaq hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin edilməsi, məişət zorakılığı ilə bağlı qanun layihələri hazırlayır. Bu sahəni əhatə edən mükəmməl qanunvericilik bazası yaradılıb, əhali arasında müvafiq maarifləndirmə işləri aparılır. Komitə sədri hazırda uşaqların sağlamlığına və inkişafına zərər verən halların aradan qaldırılması ilə bağlı yeni qanun layihəsinin hazırlandığını deyib.

Görüşdə iştirak edən UNICEF-in Azərbaycan nümayəndəliyinin rəhbərinin müavini Min Yuan bildirib ki, UNICEF Azərbaycanla əməkdaşlıqda maraqlıdır. Uşaqların ailədə inkişafı, əlilliyi olan uşaqların cəmiyyətə inteqrasiyası, inklüziv təhsil məsələləri bu gün çox aktualdır. Təqdirəlayiq haldır ki, Azərbaycanda uşaq hüquqlarının təmin edilməsi və müdafiəsi ilə əlaqədar zəruri işlər görülür, dövlət uşaq hüquqlarının qorunmasına xüsusi diqqət və qayğı ilə yanaşır. Uşaqların müdafiəsi, onların rifahının yaxşılaşdırılması, hüquqlarının təmin edilməsi ilə bağlı qanunvericilik bazası yaradılır. Əlil uşaqların hüquqlarının qorunması, valideyn himayəsindən məhrum olan uşaqların ailə mühitində yaşaması üçün məqsədyönlü addımlar atılır.

UNICEF-in regional məsləhətçiləri Joanne Bosvort və Aron Qrinberq bildiriblər ki, səfərin məqsədi təmsil etdikləri qurumun Azərbaycandakı fəaliyyətini nəzərdən keçirmək və dəstəkləməkdir. UNICEF-in parlamentlə əməkdaşlığı təqdirəlayiqdir. Uşaqların hərtərəfli inkişafı ilə bağlı həyata keçirilən tədbirlər onların gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir. Qonaqlar müasir texnologiyalardan səmərəli istifadə edilməsi, rəqəmsal sahədə uşaqların hüquqlarının qorunması, valideyn himayəsindən məhrum olmuş uşaqların yerləşdirilməsi, onlara diqqət və qayğının göstərilməsi məsələlərinə toxunub, bu sahədə ölkəmizdə əldə edilmiş nailiyyətləri yüksək dəyərləndiriblər.

Görüşdə gələcək əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Vyanada Azərbaycan ilə Avstriya arasında Qarışıq Komissiyanın 9-cu iclası

Vyana şəhərində Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın 9-cu iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komissiyanın iclasına Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Avstriyanın iqtisadiyyat və rəqəmsallaşdırma üzrə federal nazirin müavini Matias Çirf həmsədrlik edib.

İclasda hazırkı iqtisadi durum, ikitərəfli iqtisadi əlaqələr, qarşılıqlı olaraq investisiyaların cəlb olunması, rəqəmli texnologiyalar, o cümlədən ətraf mühit texnologiyaları, enerji səmərəliliyi, kənd təsərrüfatı, maliyyə, standartlaşma, gənclər, eləcə də digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

Qarışıq Komissiyanın iclasında çıxış edən nazir Ramin Quluzadə bildirib ki, Azərbaycanla Avstriya arasında münasibətlər dinamik şəkildə inkişaf edir. Nazir dövlət başçılarının və digər rəsmi şəxslərin qarşılıqlı rəsmi səfərlərinin ölkələrimiz arasında dostluq münasibətlərinin formalaşmasında mühüm rol oynadığını vurğulayıb. O qeyd edib ki, bu əməkdaşlıq Avstriya ilə Azərbaycanı etibarlı tərəfdaşlara çevirib.

Bildirilib ki, ötən il ikitərəfli ticarət həcmində artım müşahidə olunsa da, mövcud dövriyyə iki dövlətin iqtisadi potensialına cavab vermir.

Toplantıda iştirak edən Avstriya şirkətləri Azərbaycanda fəaliyyətlərini genişləndirməyə maraq göstəriblər və bu ilin may ayında Bakı şəhərində iki ölkənin özəl sektor nümayəndələrinin iştirakı ilə biznes forumun təşkil olunması qərara alınıb.

İclasda Azərbaycan tərəfindən İqtisadiyyat, Xarici İşlər, Gənclər və İdman, Kənd Təsərrüfatı və Energetika nazirliklərinin yüksək səviyyəli nümayəndələri sahəvi məsələlər barədə çıxış ediblər.

Həmçinin iclas çərçivəsində Bakı şəhərinin Beynəlxalq Sərgilər Bürosunun 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə (Expo 2025) evsahibliyi üçün namizədliyi ilə bağlı xüsusi təqdimat keçirilib.

İclasın sonunda imzalanan protokolda iqtisadiyyatın müxtəlif istiqamətləri üzrə əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər öz əksini tapıb.

Sənədə əsasən, iki ölkə arasında əlaqələrin ərazi bütövlüyü və suverenliyə hörmət prinsipləri də daxil olmaqla beynəlxalq hüququn fundamental norma və prinsipləri əsasında qurulması, fiziki və hüquqi şəxslərin bu norma və prinsiplərə əsaslanmaqla fəaliyyət göstərməsi təmin ediləcək.

Azərbaycan tərəfinin xahişi ilə Avstriya turizm şirkətlərinin işğal edilmiş ərazilərə qeyri-qanuni səfərlər təşkil etməsinin qarşısının alınması məsələsi də protokolla təsbit edilib.

Azərbaycan sərhədləri hər zaman dost üçün açıq, düşmən üçün bağlı olub. Bu prinsip mahiyyət etibarı ilə Azərbaycan dövlətində sərhəd nəzarətinin yüksək səviyyədə təşkili ilə özünü tam doğruldub. Sərhədlərin möhkəmləndirilməsi, sərhəd nəzarətinin yüksək səviyyədə olması və ölkə hüdudlarının etibarlı mühafizəsi sülhün, sabitliyin, təhlükəsizliyin daha da möhkəmlənməsi üçün ən vacib məsələlərdən biri olmaqla dost və düşməni tanımaqda da mühüm rol oynayıb.



# Sərhəd nəzarətinin yüksək səviyyədə olması təhlükəsizliyin daha da möhkəmlənməsi üçün mühüm vasitədir





Hələ 27 il əvvəl Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra qarşıda duran ən vacib məsələlərdən biri ölkəmizin ərazi hüdudlarının qorunması, sərhədlərimizin bərpası və etibarlı mühafizəsi idi. Xüsusilə, sərhəd qoşunlarının gücləndirilməsi, xidmətin yüksək səviyyədə təşkili gənc dövlətin daha çox diqqət etdiyi sahələrdən oldu. Bu istiqamətdə əsaslı islahatlar aparıldı, kadrların yetişdirilməsi gündəmə gətirildi. Ulu öndər Heydər Əliyev sərhədlərimizin toxunulmazlığının təmin edilməsini dövlətimizin mühüm vəzifəsi kimi dəyərləndirdi, sərhəd mühafizəsinin qarşısında duran vəzifələri, sərhəd siyasətinin konseptual müddəalarını müəyyənləşdirdi. Bununla da milli sərhəd strategiyasının yaradılması və onun əməli surətdə həyata keçirilməsini təmin edən konkret fəaliyyət istiqamətləri müəyyən olundu. Dövlət müstəqilliyinin ilk illərində bu istiqamətdə atılan addımlar ilbəil daha da inkişaf etdirildi və bugünkü yüksək səviyyəyə çatdırıldı.

Təbii ki, yeni sərhəd məntəqələrinin yaradılması, sərhədçilərin müasir texnika və avadanlıqla təchiz olunması, eyni zamanda ciddi nizam-intizam, peşəkarlıq səviyyəsinin yüksək olması xidmət zamanı öz müsbət nəticəsini verir. Artıq ölkəmizin sərhəd təhlükəsizliyinin texniki yolla təmin olunması istiqamətində mühüm tədbirlər həyata keçirilməkdədir. Sərhəd məntəqələrində bir neçə ildir ki, səyyar radiolokasiya sistemləri tətbiq olunur. Zastavaların daxili təhlükəsizliyinin təmin edilməsi üçün texniki vasitələr kompleksinin və çevik müşahidə postlarının tətbiqi, sərhəd məntəqələrinin istiliyə həssas olan səyyar və stasionar müşahidə vasitələri, radiolokasiya sistemləri ilə komplektləşdirilmiş elektron-optik vasitələrlə təchiz edilməsi, rəqəmsal informasiya-telekommunikasiya texnologiyası əsasında qurulmuş vahid elektron informasiya sisteminin yaradılması istiqamətində uğurlu tədbirlər həyata keçirilir.

Sərhədçilərin ayıq-sayıqlığı və qonşu ölkələrlə qarşılıqlı əməkdaşlığı münasibətlərin də inkişafına öz töhfəsini verir. İşğalçı Ermənistan dövləti istisna olmaqla, digər həmsərhəd olduğumuz dörd ölkə ilə Azərbaycan dövlətinin sərhədləri tam şəffafdır və qarşılıqlı prinsip əsasında mühafizə olunur.

Ölkəmiz şimaldan Rusiya ilə həmsərhəddir və quru sərhədlərinin uzunluğu 400 kilometrə yaxındır. Bu ölkə ilə sərhəd zonalarımız əsasən dağlıq əraziləri əhatə edir, Samur çayı, Sudur silsiləsi və Baş Qafqaz silsiləsinin bir hissəsindən keçir. Eyni zamanda Rusiya Azərbaycanın sosial-iqtisadi və siyasi baxımdan sıx əlaqələri olan ən böyük ölkədir. Ona görə də bu istiqamətdə sərhəd keçid məntəqələrimiz də hər zaman diqqət mərkəzində olub və inkişaf etdirilib.

Bu günlərdə Rusiya Federasiyası ilə sərhəddə daha bir yeniliyə imza atıldı: Azərbaycan-Rusiya dövlət sərhədlərində ilk sərhəd nişanı quraşdırıldı. Nişan Qusar rayonunun Zuxul kəndi ərazisində Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının sərhəddində hər iki ölkənin rəsmi şəxslərinin iştirakı ilə qoyuldu və bayraqlar ucaldıldı. Dövlət sərhədlərinin tanınmasından əlavə konkret olaraq müəyyən edilmiş ərazidə sərhəd nişanının quraşdırılması tam ayrı bir hüquqi üstünlük verir və bu, müstəqil Azərbaycan dövlətinin tarixində ilk sərhəd nişanı idi ki, Rusiya ilə sərhəddə quraşdırıldı. Sözsüz, bu, təkcə Azərbaycan yox, Rusiya Federasiyasının sərhəd mühafizəsi üçün çox vacib və əhəmiyyətli bir məsələ idi.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin elan olunduğu dövrdən etibarən dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası milli dövlətçiliyimiz üçün müstəsna əhəmiyyətli məsələlərdən biri olub. Zamanında - milli sərhəd mühafizəsi strategiyasının müəllifi ulu öndər Heydər Əliyev, hazırda isə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən bu məsələlərə xüsusi önəm verilib, bununla bağlı dövlətlərarası komissiyanın fəaliyyəti hər zaman diqqət mərkəzində saxlanılıb.

Xatırladaq ki, həmsərhəd ölkələr arasında ilk olaraq Azərbaycan-Rusiya dövlət sərhədlərinin müəyyənləşdirilməsi prosesinə 1996-cı ildən başlanılıb və 14 illik fəaliyyət uğurla yekunlaşdırılaraq 3 sentyabr 2010-cu il tarixində "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında" dövlətlərarası müqavilə imzalanıb.

Bu müqavilənin icrası iki dövlət və xalqlar arasında dostluq və yaxın qonşuluq əlaqələrinin daha da inkişafına və möhkəmlənməsinə xidmət etməklə yanaşı, dövlət sərhədlərinin mühafizəsi işinə də öz müsbət töhfəsini verir. Bu prosesdə Azərbaycan və Rusiya sərhədçilərinin ciddi əməyini xüsusi vurğulamaqla, hələ 22 il əvvəl - 1996-cı ildə Azərbaycan və Rusiya sərhəd nümayəndələri arasında dövlət sərhədinin mühafizəsi üzrə xidmət aparma yerlərinin müəyyən edilməsi haqqında protokolun imzalanmasını, 2002-ci ilin yanvar ayının 25-də imzalanmış "Sərhəd nümayəndələrinin fəaliyyəti haqqında" hökumətlərarası sazişin qüvvəyə minməsini qeyd etmək olar.

Xatırladaq ki, Xəzər dənizinin hüquqi statusunun və hövzə dövlətlərinin milli sektorlarının müəyyən edilməsi sahəsində də ciddi irəliləyişlər əldə olunmuşdur və cari il ərzində bu istiqamətdə yekun razılaşmanın imzalanması nəzərdə tutulur. Azərbaycan və Rusiya sərhəd mühafizə orqanları arasında mövcud olan yüksək səviyyəli əməkdaşlığı da bu razılaşmanın əldə olunmasına öz töhfəsini verir. Xəzər hövzəsi dövlətlərin sərhəd mühafizə orqanları arasında "Xəzər dənizində sərhəd qurumlarının əməkdaşlığı və qarşılıqlı fəaliyyəti haqqında Protokol"un yaxın vaxtlarda imzalanmasının nəzərdə tutulması da bu istiqamətdə sərhəd əməkdaşlığının yüksələn xətt üzrə inkişafının real göstəricisidir.

Onu da qeyd edək ki, Dövlət Sərhəd Xidmətinin təkcə Rusiya Federasiyası ilə yox, ABŞ, Avropanın aparıcı dövlətləri, Yaxın Şərq və Asiya ölkələrinin sərhəd mühafizə qurumları ilə təcrübə mübadiləsi və əməkdaşlığı əsasən inteqrə edilmiş sərhəd idarəçiliyi, sərhəd nəzarəti, qeyri-leqal miqrasiya ilə mübarizə, dəniz sərhədlərinin mühafizəsi, müvafiq sahələr üzrə peşə hazırlığının təkmilləşdirilməsi, təlim-tədris sisteminin təşkili və digər sahələrdə həyata keçirilir.

Bu gün relyefindən və iqlim şəraitindən asılı olmayaraq, Azərbaycanın sərhədləri etibarlı mühafizə olunur. Həmçinin, Azərbaycan Respublikasının dövlət təhlükəsizliyinin təmin edilməsində, xarici ölkələrin xüsusi xidmət orqanları əməkdaşlarının kəşfiyyat və terrorçuluq fəaliyyətinin qarşısının alınmasında və digər vacib məsələlərdə Dövlət Sərhəd Xidməti yaxından iştirak edir.

***Elnur HADIYEV,***
***"Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həllinə kömək göstərirlər.

Növbəti belə qəbul martın 2-də Neftçala Mərkəzi Rayon Xəstəxanasında keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, qəbul zamanı nazir Oqtay Şirəliyev Neftçala, Salyan, Biləsuvar və Cəlilabad sakinlərinin sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib.

Vətəndaş müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Müraciətlərin bəziləri yerindəcə həllini tapıb.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

* * *

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov martın 2-də Siyəzən şəhərində şimal bölgəsindən olan sakinlərlə görüşüb.

Heydər Əliyev Mərkəzində keçirilən görüşdə Siyəzən, Şabran, Quba, Qusar, Xaçmaz rayonlarından olan vətəndaşların məşğulluğun təmin edilməsi, kiçik ailə təsərrüfatının yaradılması üçün özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə təmin edilmə, peşə hazırlığı kurslarına cəlb olunma, tibbi-sosial reabilitasiya, imtiyazlı şəxslərin mənzillə təminatı, əmək hüquqlarının müdafiəsi, sosial xidmətlərin göstərilməsi, bu və ya digər sosial təminat növünə hüququn müəyyən edilməsi və s. məsələlərlə bağlı müraciətləri dinlənilib.

Müraciətlər nazirliyin struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə cavablandırılıb, müvafiq məsələlərin həlli ilə əlaqədar tədbirlər görülüb. Ayrı-ayrı şəxslərin müraciətlərinə əsasən reabilitasiya vasitələri və sosial xidmətlərlə təmin edilmələri barədə tapşırıqlar verilib.

Qəbul zamanı işlə təmin olunmaq üçün müraciət edən vətəndaşlar yaşadıqları ərazilərdə olan vakansiyalarla tanış edilib və həmin vakansiyalar üzrə onlara seçimlərinə, əmək bacarıqlarına uyğun iş yerlərinə göndərişlər verilib. Ayrı-ayrı vətəndaşlar peşə hazırlığına, özünüməşğulluq proqramına cəlb edilmək üçün qeydiyyata götürülüblər.

* * *

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova martın 2-də Gəncə şəhərində Kəlbəcərdən olan məcburi köçkünlər üçün salınmış yeni qəsəbədə vətəndaşları qəbul edib. Kəlbəcər Rayon Mədəniyyət Evində keçirilən qəbulda Gəncə, Mingəçevir, Naftalan və Yevlax şəhərlərindən, eləcə də Goranboy, Göygöl, Samux və Xocalı rayonlarından olan vətəndaşlar iştirak ediblər.

Qəbulda komitə sədri vətəndaşların fikir və təkliflərini dinləyib. Vətəndaşlar əsasən qadın və uşaq hüquqlarının müdafiəsi, məşğulluq, sağlamlıq, boşanmalardan yaranan problemlər, imkansız ailələrin müvafiq istiqamətdə təminatı ilə əlaqədar müraciətlər ediblər.

Vətəndaşların Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid məsələlərlə bağlı müraciətləri araşdırılaraq cavablandırılıb və aidiyyəti üzrə tədbirlər görülüb. Müraciətlərin bir çoxu elə yerindəcə həll edilib, bəzi məsələlər isə araşdırılmaq üçün nəzarətə götürülüb. Komitənin səlahiyyətlərinə aid olmayan müraciətlərlə əlaqədar vətəndaşlara hərtərəfli izahat verilib, icrası nəzarətdə saxlanılmaqla aidiyyəti strukturlara çatdırılacağı bildirilib.

Qəbula gələn vətəndaşlar yaradılan şəraitdən razılıq edib, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə bu cür qəbulların keçirilməsinə görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

***AZƏRTAC***

Sürətli iqtisadi inkişafın, sabitliyin, tolerantlığın, milli və bəşəri dəyərlərin ideal sintezinin nümunəsinə çevrilmiş Azərbaycan həm də qlobal enerji - logistika layihələrinin təşəbbüskarı və iştirakçısı, regionda ən qüdrətli orduya sahib əsas güc mərkəzi olduğunu sübuta yetirib. Həmçinin həyata keçirdiyi tam müstəqil siyasəti ilə dünya birliyinin etibarlı tərəfdaşı statusunu qazanıb. Əlbəttə ki, dinamik inkişaf, sürətli tərəqqi və modernləşmə, həyata keçirilən qətiyyətli dövlət siyasətinin göstəricisidir. Bir sözlə, müasirliyə gedən yolda inamla addımlayan Azərbaycan ən qabaqcıl standartları milli dəyərlərimizə uyğun olan şərtlə tətbiq etməkdədir.



# Qüdrətli dövlət, güclü hakimiyyət, etibarlı tərəfdaş

*Son 15 ildə inkişaf fenomeninə çevrilən Azərbaycanın idarəçilik və yüksəliş modeli bir çox ölkələr üçün praktik nümunədir*

### 26 illik qələbələr salnaməsi

Son illərdə həyata keçirilən uğurlu siyasi-iqtisadi islahatlar həm idarəçilik fəlsəfəsinə yeni məna çalarları gətirmiş, həm də xalqın daha xoş sabaha olan inamını qat-qat artırmışdır. Çünki davamlı inkişaf, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi dövlətin sosial siyasətinin prioritetidir.

Müstəqilliyinin cəmi 26 yaşı olan Azərbaycanda son 15 ildə həyata keçirilən dövlət siyasətinin təməlində ölkə vətəndaşının maraqları dayanıb. O baxımdan qısa zaman kəsiyində həyata keçirilən dövlət siyasətinə, qazanılan uğurlara nəzər salsaq aydın şəkildə görərik ki, Azərbaycan bir çox aparıcı dünya dövlətlərinin onilliklər boyu keçdiyi təkamül və inkişaf mərhələlərini qısa zaman kəsiyində qət edib. Azərbaycan tarix boyu heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb. Respublikamızda dünya ölkələrinin heç birinə bənzəməyən, özünəməxsus iqtisadi və siyasi inkişaf modelinin formalaşması faktı tam təsdiqini tapıb. İnkişaf fenomeninə çevrilən Azərbaycanın idarəçilik və yüksəliş modeli bir çox ölkələr üçün praktik nümunədir. Hansı ki, bu model qlobal iqtisadi və maliyyə böhranları şəraitində özünü tam doğruldub.

### Demokratik və hüquqi inkişaf yolu

Müasir dövrdə dövlətlərin demokratiklik əmsalı sosial-iqtisadi inkişaf göstəriciləri ilə yanaşı, həm də siyasi hakimiyyətin xalqa xidmət səviyyəsi, cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqliyi ilə müəyyənləşir. Xalqdan mandat almış hakimiyyət fəaliyyəti ilə daim ictimai etimadı doğrultmağa, hər bir vətəndaşın mənafeyinə hesablanan siyasi-hüquqi və sosial-iqtisadi islahatları həyata keçirməyə çalışır.

Demokratik proseslərin və milli inkişafın ən vacib şərti kimi qəbul olunan insan hüquqlarına hörmət və onların müdafiəsi də hər bir dövlətin ali vəzifəsidir. Müasir dövrdə insan hüquq və azadlıqları sahəsində baş verən köklü dəyişikliklər həm milli, həm də beynəlxalq normalar əsasında tənzimlənir.

Dünya birliyinin üzvü kimi demokratik, hüquqi inkişaf yolunu seçən Azərbaycanda insan hüquqlarının demokratik dəyərlər çərçivəsində təmin olunması dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab olunur. Son 15 ildə respublikamızda insan hüquq və azadlıqlarının təmini prosesi daha da təkmilləşib və ölkəmiz bu sahədə böyük uğurlara imza atıb.

28 dekabr 2006-cı ildə Azərbaycan Respublikasında İnsan Hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı, 2011-ci ildə isə Milli Fəaliyyət Proqramı təsdiq edilib. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə 2000-ci ildən indiyədək 300-ə yaxın dəyişikliklər edilib ki, bunların da böyük əksəriyyəti humanistləşdirməyə, liberallaşdırmaya, azadlıqdan məhrum etmə cəzalarının azaldılmasına və bütövlükdə insan hüquq və azadlıqlarının təminatı mexanizminin təkmilləşdirilməsinə xidmət edir.

İnsan hüquqlarının qorunması ilə bağlı bütün beynəlxalq sazişlərə qoşulan Azərbaycanda bu sahədə qazanılan uğurlar bir daha təsdiq edir ki, ölkəmizdə insan hüquq və azadlıqlarının yüksək səviyyədə təminatına yönəlmiş kompleks tədbirlərin davam etdirilməsi yüksək nəticələrin əldə olunmasına imkan yaradır. İnsan hüquqlarının təmini istiqamətində həyata keçirilən tədbirlər vətəndaş cəmiyyəti quruculuğu prosesinin əsas şərtlərindən biri kimi çıxış etməklə nəinki respublikamızda, həmçinin beynəlxalq arenada yüksək qiymətləndirilir.

Hərtərəfli siyasi islahatlar ölkənin siyasi sisteminin təkmilləşməsini və müasir standartlara uyğunlaşmasını əsaslı surətdə təmin edib. İnsan hüquq və azadlıqları, o cümlədən siyasi azadlıqlar, söz və mətbuat azadlığı tam təmin edilib, idarəetmənin optimallaşdırılması və səmərəliliyinin artırılması sahəsində ciddi addımlar atılıb.

2016-cı ildə keçirilən referenduma əsasən baş tutan Konstitusiya islahatları, vitse-prezident institutunun yaradılması siyasi islahatların dərinləşməsi istiqamətində ən uğurlu addımlardan sayıla bilər. Bu islahatların nəticəsində Azərbaycan dövlətinin daha qüdrətli və möhtəşəm görkəm alması haqlı olaraq xalqın qürur və iftixar mənbəyinə çevrilib. Tam müstəqil xarici və daxili siyasət dövlətin qüdrətinin, müstəqilliyinin ən bariz ifadəsidir.

### Mütərəqqi yeniliklər, demokratik və iqtisadi islahatların paralelliyi

Bu bir həqiqətdir ki, demokratik proseslərin davamlı şəkildə aparılmadığı hansısa dövlətin iqtisadi sahədə davamlı və yüksək nəticələr əldə etməsi, beynəlxalq arenada layiqli yerini tutması, dünya təsərrüfat sisteminə inteqrasiyası mümkün deyil. Eyni zamanda iqtisadi cəhətdən inkişaf etməmiş hansısa dövlətdə demokratikləşməyə və vətəndaş cəmiyyəti quruculuğuna yönələn cəhdlər əsasən uğursuzluqla nəticələnir. Çünki tətbiqinə cəhd göstərilən mütərəqqi yeniliklər vətəndaşların real yaşayış səviyyəsi ilə bir araya sığmır. Məhz bu reallıqları nəzərə alan Azərbaycan dövləti hər iki təmayülə vəhdət şəklində yanaşılmasını vacib sayır və ölkənin uzunmüddətli inkişafını məhz demokratik və iqtisadi islahatların paralel şəkildə aparılması şərtilə real hesab edir.

Azərbaycanda siyasi islahatlar çox cəsarətlə aparılır. Bu da dövlət siyasətinin prinsipial və düşünülmüş seçimidir. İqtisadi və siyasi islahatlar ölkənin inkişafı üçün çox möhkəm zəmin yaradır. Dövlət bu iki amili bərabər, paralel şəkildə həyata keçirir və gözəl zəmin əsasında güclü dövlət quruculuğu prosesi gedir. Bu zəmin əsasında Azərbaycanda güclü sosial siyasət aparılır. Cəmiyyət həyatındakı fundamental dəyişikliklər hüquqi-siyasi islahatların dərinləşdirilməsini, inkişaf etmiş Qərb dövlətlərinin mütərəqqi demokratik ənənələrinin mənimsənilməsinə xidmət edən fəal siyasətin həyata keçirilməsini aktual məsələ kimi önə çıxarır.

Respublikamızın aktiv inkişaf fazasına daxil olduğu indiki mərhələdə demokratik normaların ictimai şüurda möhkəmlənməsinə və qəbul edilməsinə daha yaxşı imkanlar yaranıb. Bu çağırışın əsasında Azərbaycanda liberal dəyərlərin, insan və vətəndaş hüquq və azadlıqlarının prioritetinə əsaslanan, cəmiyyətə təkamül yolu ilə əxz edilən suveren demokratiya modelinin formalaşdırılması məqsədi dayanır.

### Müasir innovasiya və yeni keyfiyyət mərhələsi

Azərbaycanda demokratikləşmə və modernləşmənin ilkin mərhələsi üçün xarakterik xüsusiyyətlərdən biri də dünya təsərrüfat sisteminə və ümumilikdə Avroatlantik məkana sürətli inteqrasiyanın təmin edilməsi olub. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Qərb şirkətlərinin Xəzər hövzəsində külli miqdarda investisiya yatırması Azərbaycana ən müasir innovasiya və informasiya texnologiyalarını gətirməklə yanaşı, demokratik proseslərin, hüquqi-siyasi islahatların sürətlənməsinə, vətəndaş cəmiyyətinin formalaşmasına, habelə Avropanın nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlıq xəttinin güclənməsinə ciddi təkan verib. Avropa Şurası, ATƏT, Avropa Birliyi kimi mühüm demokratik təşkilatlarla əməkdaşlıq təkcə siyasi-hüquqi deyil, ictimai həyatın digər sahələrində də kardinal dəyişikliklərə yol açıb, respublikamıza xarici sərmayə qoyuluşlarının həcmini artırıb. Bunun nəticəsidir ki, Azərbaycan iqtisadiyyatına indiyədək 231 milyard dollar investisiya yatırılıb. Bunun da yarısı xarici investisiyadır. 2004-cü ildə 1,8 milyard dollar olan valyuta ehtiyatlarımız 24 dəfə artaraq 44 milyard dollara yüksəlib.

Ümumiyyətlə, yaxın keçmişə nəzər salsaq aydın şəkildə görərik ki, son 15 ildə müasir iqtisadi inkişaf modelini müəyyənləşdirən Azərbaycanda yeni keyfiyyət mərhələsi başlayıb. Dövlət idarəçiliyində, ictimai-siyasi, iqtisadi, mədəni həyatda müstəsna əhəmiyyət daşıyan işlər görülüb. Əldə edilən nailiyyətlər isə olduqca çoxdur.

Bəs, bu uğurlar necə əldə edilib? Dünyanın müxtəlif yerlərində, hətta regionda baş verən toqquşmalar, müharibələr, vətəndaş müharibələri, ölkələrin bir-birinin işinə kobudcasına qarışması, hərbi müdaxilələr fonunda Azərbaycanda ilk növbədə daxili sabitlik təmin olunub, ölkədə əlverişli biznes və investisiya mühiti formalaşdırılıb. Ən önəmlisi odur ki, Azərbaycan hazırda dünyanın təhlükəsiz ölkələrindən biri kimi tanınır.

### İqtisadi müstəqilliyin möhtəşəm uğurları

Dünya birliyinin etibarlı tərəfdaşına çevrilən Azərbaycanda aparılan tam müstəqil dövlət siyasəti nəticəsində qazanılan nailiyyətlər ölkəmizi tarixinin ən qüdrətli dövlətinə çevirib. Bu möhtəşəm tarixi uğurlara qısa da olsa nəzər yetirək:

Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib, açıq dənizə çıxışı olmayan ölkə qısa zamanda regional logistik-nəqliyyat dəhlizinə, neft-qaz ixracatçısına, kosmik dövlətə, sənaye mərkəzinə çevrilib. Cənubi Qafqazın ən güclü modern ordusu və Xəzər dənizində 270 gəmidən ibarət hərbi donanma yaradılıb. Müstəqilliyinin cəmi 26 yaşı olan Azərbaycan beynəlxalq forumların, konfransların, idman yarışlarının keçirildiyi məkan kimi yeni standartlar müəyyənləşdirib.

Bundan başqa, Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu beynəlxalq transmilli layihələr ölkəyə böyük dividendlər qazandırıb. "Əsrin müqaviləsi"nin 2050-ci ilədək uzadılması, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi, 2 milyard ton neftin hasil edilməsi şanlı tariximizə qızıl hərflərlə yazılıb.

Azərbaycan həmçinin "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan dörd layihədən ibarət ("Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP) "Cənub qaz dəhlizi" kimi 40 milyarddan çox investisiya yatırılan layihələrin əsas təşəbbüskarlarından biridir. Artıq "Şahdəniz-2" üzrə işlər 99 faiz, CQBK üzrə 95 faiz, TANAP üzrə 95 faiz, TAP üzrə isə 70 faiz reallaşıb. Layihə çərçivəsində Azərbaycan təbii qazının bu il Türkiyəyə, 2020-ci ilədək isə Avropaya nəql edilməsi planlaşdırılır.

Bütün bunlar inkişaf, sabitlik, proqnozlaşdırılma imkanı deməkdir və etibarlı əməkdaşlığa yol açır. Bu gün "Cənub qaz dəhlizi"nin iştirakçısı olan ölkələr Azərbaycanın çox yaxın tərəfdaşlarıdır. Azərbaycan artıq bu ölkələrin böyük əksəriyyəti ilə strateji tərəfdaşlığa dair bəyannamələr imzalayıb. Hazırda Azərbaycan Avropa İttifaqı ilə danışıqlar aparır və yeni tərəfdaşlıq sazişi ölkəmizlə Avropa İttifaqı arasında əməkdaşlıq üçün yeni format yaradacaq.

### Müasirliyə gedən yol

Dövlətin həyata keçirdiyi yeni iqtisadi konsepsiya respublikanın sosial-iqtisadi inkişafı prosesində dinamizmi və məqsədyönlülüyü təmin edib, qarşıda duran vəzifələrin həllinə real imkanlar açıb və cəmiyyətin ümumi potensialının milli məqsədlər naminə səfərbər olunmasına etibarlı zəmin yaradıb.

26 illik müstəqillik Azərbaycanın çoxəsrlik həyatında tarixi nöqteyi-nəzərdən az bir zaman kimi görünsə də, ölkəmiz bu müddət ərzində böyük və misilsiz inkişaf yolu keçərək demokratik, hüquqi, dünyəvi dövlət qurmağa, onun təsisatlarını yaratmağa nail olub. Əldə edilən uğurlar müstəqilliyin möhkəmləndirilməsinə, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına və Azərbaycanın beynəlxalq aləmdə layiqli yerini təmin etməsinə imkan verib. Siyasi, iqtisadi müstəqillik və sosial sabitlik uğurlu inkişafın möhkəm təməlini formalaşdırıb.

Ancaq bir həqiqəti unutmamalıyıq ki, dünyanın heç bir yerində ərazisinin beşdəbir hissəsi düşmən işğalında olan dövlət 15 il ərzində öz iqtisadiyyatını üçqat artıra, ən yüksək artım tempinə nail ola, enerji, nəqliyyat və ərzaq təhlükəsizliyini təmin edə bilməyib. Bunu təkcə biz demirik, dünyanın mötəbər reytinq təşkilatlarının açıqladıqları nüfuzlu araşdırmaların hesabatları təsdiq edir. Məsələn, Azərbaycan 2018-ci il üzrə Dünya İqtisadi Forumunun ənənəvi inklüziv indeksində inkişaf edən ölkələr arasında üçüncü yerə layiq görülüb. "Siyasətçilərə ictimai etimad" kateqoriyası üzrə isə dünyada 137 ölkə arasında 20-ci yerə yüksəlib. Respublikamız "Böyük İyirmilik" ölkələrinin hər 4-dən 3-nü, bütün postsovet respublikalarını və türk dövlətlərini qabaqlayıb. Bu, Azərbaycanda həyata keçirilən inkişaf siyasətinin vətəndaşlar tərəfindən rəğbətlə və məmnunluqla qarşılanmasının ifadəsidir.

Bu gün Azərbaycan müasirliyə gedən yoldadır. Hər bir ölkənin varlığı, rifahı, onun vətəndaşlarının normal və rahat yaşayışı həmin ölkənin iqtisadi inkişaf səviyyəsindən, bu inkişafa və tərəqqiyə zəmin yaradan siyasi idarəetmə sisteminin mükəmməlliyindən, dünyada baş verən qlobal proseslərin fonunda öz xalqının mənafelərinə uyğun siyasət yeritməsindən çox asılıdır. 26 ildir ki, müstəqilliyinin bərpasının bəhrələrini, müsbət nəticələrini aydın görən Azərbaycan xalqı öz dövlətinə inam nümayiş etdirərək ölkənin iqtisadi və müdafiə qüdrətini artırmaq üçün fədakarlıqla çalışır. Bu isə o deməkdir ki, Azərbaycan həm bu il, həm də növbəti illərdə öz uğurlu, dinamik inkişaf tempini nəinki saxlayacaq, onu daha da möhkəmləndirəcək. Çünki iqtisadi güc, böyük maliyyə resursları Azərbaycanın siyasi müstəqilliyini getdikcə daha da möhkəmləndirir.

***Mehdi ABDULLAYEV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının prorektoru, hüquq elmləri doktoru***



# REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI III DÖVLƏT PROQRAMI

# Sahibkarlar bölgələrə üz tuturlar



Hazırda regionlarda müşahidə olunan inkişaf dinamikası ölkədə özəl sektor üçün yaradılan münbit şəraitdən xəbər verir. Məhz bu şərait imkan verir ki, sahibkarlar tədricən olsa da, bölgələrə üz tutsunlar.

Bəs bu sahədə vəziyyət Qobustanda necədir? Rayon icra hakimiyyətinin başçısı Adil Məmmədov bildirdi ki, 2017-ci ildə bölgələrin inkişafı üçün verilən mühüm tapşırıqlardan biri regionlara özəl investisiyanın cəlb edilməsi ilə bağlı olub: “Bu istiqamətdə keçən il rayonda bir sıra işlər görülüb. Belə ki, 2017-ci ildə rayona ümumi dəyəri 8,4 milyon manat investisiya cəlb edilib. Həmin investisiyalar da fərqli sahələrə yatırılıb. Gəlin onları ayrı-ayrılıqda nəzərdən keçirək. Əvvəlcə Qobustanın iqlimi ilə çox da uzlaşmayan sahələrdən biri - bağçılıqla bağlı vəziyyətə nəzər yetirək. Bu sahəyə 3 fiziki şəxs tərəfindən 205 min manat investisiya qoyulub. Xilmilli kəndində 7,65 hektarda qoz, 1,36 hektarda əncir bağları salınıb, Türkiyə sortu olan 2200 qoz və 300 əncir tingi əkilib. Cəngi kəndində 7 hektarda 1500 nar və 300 zeytun tinginin əkini təmin olunub”.

Öyrəndik ki, rayonun ənənəvi sahələrindən olan heyvandarlığa da sərmayə qoyulur. 2 fiziki şəxs tərəfindən Ərəbqədim kəndində 250 kvadratmetr ərazidə heyvandarlıq kompleksinin tikintisinə başlanılıb. Layihənin ümumi dəyəri 200 min manatdır. Xilmilli kəndində ərazisi 300 hektar olan 200 başlıq qaramal ferması, 1000 baş davarın saxlanması üçün tikili və 1000 ton tutumu olan taxılsaxlama anbarı artıq istifadəyə verilib. İllik istehsal gücü 35 ton ət, 400 ton süd və 1 ton yundur. Kompleksdə 40 nəfər çalışır. Ümumilikdə 2017-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə rayona 1188 min manat investisiya qoyulub. Cari ildə bu sahəyə daha 1,8 milyon manat sərmayə qoyuluşu gözlənilir.

Bunlardan əlavə, tikinti üzrə fiziki şəxs tərəfindən 250 min manat investisiya qoyulması nəticəsində Qobustan şəhərində ictimai iaşə və istirahət kompleksi tikilir. Ümumiyyətlə, ticarət üzrə 11 fiziki şəxs tərəfindən 620 min manat investisiya qoyuluşu olub. Həmin vəsaitlə Qobustan şəhərində avtomobillərə servis xidməti, “Yaşıl market”, tikinti materiallarının satışı mağazası, çay evi, yüngül sənaye məhsullarının satışı üçün 2, ərzaq məhsullarının satışı məqsədilə 3 ticarət obyekti və 2 kafe istifadəyə verilib. Bu sahəyə əlavə 72 min manat vəsait cəlb ediləcək. Ümumilikdə ticarət üzrə 32 yeni iş yerinin yaradılması nəzərdə tutulur. Eyni zamanda, 730 min manat investisiya qoyulması sayəsində Qurbançı və Ərəbşahverdi kəndlərində 6, Şıxzahırlı kəndində 3, Cəmcəmli kəndində 9, Qaracüzlü kəndində 6, Sündü kəndində 1,5 kilometr yol çəkilib. Bu istiqamətdə 140 min manat əlavə vəsaitin qoyulması planlaşdırılır.

Turizm üzrə 2 milyon 150 min manat investisiya qoyuluşu sayəsində “Strateji” MMC tərəfindən “Qobuland” istirahət kompleksində yeni istirahət meydançaları, ümumi sahəsi 270 kvadratmetr olan üçmərtəbəli restoran, 300 kvadratmetrlik buz meydançası yaradılıb. Bu layihə üzrə ümumilikdə 3 milyon manat investisiyanın qoyulması, 10 daimi iş yerinin yaradılması nəzərdə tutulur.

2017-ci ildə 7 fiziki şəxs tərəfindən 300 min manat investisiya qoyulması sayəsində Xilmilli kəndində 3 min, Sündü kəndində 250, 300, 400 və 600, Cəmcəmli kəndində 2 min, Cəngi kəndində 1000 tonluq olmaqla ümumilikdə 7 taxıl anbarı inşa edilib. Burada 7 nəfərin daimi işlə təmin edilməsi gözlənilir. Digər xidmət sahələri üzrə isə 70 min manat investisiya qoyulması sayəsində Sündü kəndindəki “Qırxbulaq” ərazisində nasos stansiyası tikilib, 132 kilovoltamper gücündə nasos qurulub, 630 kilovoltamper gücündə transformator quraşdırılıb, 3 kilometr boru xətti ilə kəndin bir hissəsinə içməli su çəkilib. Kənddaxili şəbəkənin qurulması üçün işlər davam edir. Layihənin ümumi dəyəri 130 min manatdır.

Təhsil üzrə daxili imkanlar hesabına 1 milyon 50 min manat investisiya qoyulması sayəsində Qobustan şəhərində 100 yerlik uşaq bağçası istifadəyə verilib. Digər sahələr üzrə 60 min manat investisiya qoyulması sayəsində Qobustan şəhərində ərazisi 0,6 hektar, tikinti sahəsi 544 kvadratmetr olan dərman bitkilərinin toplanması, saxlanması və emalı üzrə müəssisə yaradılıb. Layihənin ümumi dəyəri 210 min manatdır. İlkin olaraq burada 8 daimi iş yerinin yaradılması nəzərdə tutulur.



Qeyd edək ki, 2017-ci ildə qoyulmuş özəl investisiyanın 3 milyon 910 min manatı bilavasitə icra hakimiyyəti tərəfindən cəlb edilmiş investisiyalardır.

**_Əli SƏLİMOV, “Azərbaycan”_**

# Potensialdan səmərəli istifadə olunanda

İmişli ölkənin böyük iqtisadi potensiala malik rayonlarındandır. Bu gün rayonda sənaye və kənd təsərrüfatı məhsulları istehsalının artımı əhalinin həyat səviyyəsinin yaxşılaşmasında, sosial problemlərin həllində başlıca rol oynayır. İqtisadiyyatın əsas sahələri üzrə təkcə keçən il 496 milyon 521 min manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir. Məhsul istehsalının 46,7 faizi sənayenin, 23,4 faizi kənd təsərrüfatının payına düşmüşdür.







Rayonda iqtisadiyyatın əsas sahələrinin inkişafına investisiya qoyuluşunun həcmi də sürətlə artır. İmişlinin iqtisadi potensialı xarici investorların da diqqətini cəlb edir. Keçən il rayon iqtisadiyyatına investisiya qoyuluşunun həcmi bütövlükdə 87 milyon 566 min manat olmuşdur. Qoyulmuş investisiyanın 30,8 milyon manatı sənaye, 38,3 milyon manatı kənd təsərrüfatının inkişafına, 16,8 milyon manatı enerji və su təchizatının yaxşılaşdırılmasına yönəldilmişdir.

Rusiya Federasiyasının Arxangelsk vilayətinin qubernatorunun dəvəti ilə ötən ilin mayında rayonun nümayəndə heyəti kiçik və orta sahibkarlığın inkişafına dair keçirilən forumda iştirak etmişdir. Ötən ilin dekabrında isə Arxangelskdən olan sahibkarlar İmişli rayonuna səfər etmiş, rayon iqtisadiyyatına investisiya yatırmaq imkanlarını öyrənmişlər. Bu istiqamətdə atılan addımlar deməyə əsas verir ki, hər iki tərəfin kiçik və orta sahibkarlıq subyektlərinin regionlara investisiya qoymaq marağı güclənəcəkdir.

İmişli əsasən aqrar rayon olsa da, bu gün burada istehsal olunan sənaye məhsullarının çəkisi ümumi məhsul buraxılışında üstünlük təşkil edir. Son illər rayonun sənaye potensialı nəzərəçarpacaq dərəcədə artmışdır. “Azərbaycan Şəkər İstehsalat Birliyi” MMC-nin kəllə qənd, qarışıq yem, bitki yağları, spirt emalı, çuğundur yem qurutma zavodları, Bəhrəmtəpə qəsəbəsində 50 min tonluq taxıl anbarı, Qaragüvəndikli kəndində damazlıq yumurta istehsal edən “Araz” damazlıq quşçuluq MMC, İmişli broyler və “Araz” konservləşdirilmiş şirələr və konyak zavodları rentabelli fəaliyyətləri ilə rayon iqtisadiyyatının güclənməsinə sanballı töhfələr verirlər. Keçən il rayonda 232,1 milyon manatlıq sənaye məhsulları istehsal olunmuşdur. Həmin məhsulların 94,6 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Rayonun iqtisadiyyatında kənd təsərrüfatı məhsullarının istehsalı da xüsusi yer tutur. Təsərrüfatlarda pambıq, taxıl, tərəvəz əkinləri üstünlük təşkil edir. Heyvandarlığa da maraq güclüdür. İlin bütün fəsillərində əhalini təzə tərəvəz məhsulları ilə təmin etmək üçün rayonda müasir tələblərə cavab verən, mütərəqqi texnologiya əsasında qurulan istixana təsərrüfatı yaradılmışdır. 4 hektar sahəni əhatə edən istixana kompleksi il ərzində 1000 ton tərəvəz istehsal etmək gücünə malikdir. Burada istehsal olunan məhsullar əsasən Rusiya Federasiyasına ixrac olunur.

“Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”nə uyğun olaraq, rayonun inzibati ərazisində yerləşən qış otlaq sahələrindən 10211 hektar torpaq sahəsi Nazirlər Kabinetinin qərarı ilə əkin dövriyyəsinə daxil edilmişdir. Daha 6 min hektar qış otlaq sahəsinin təyinatını dəyişdirmək üçün Nazirlər Kabinetinə müraciət edilmişdir.

İqtisadiyyatın dinamik inkişafı rayon əhalisinin sosial durumunu yaxşılaşdırmağı da şərtləndirir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrasına başlanandan indiyədək 25,8 mindən çox yeni iş yeri yaradılmışdır. Keçən il açılan yeni iş yerlərinin sayı isə 2667-dir. Bunun təxminən yarısı daimi iş yerləridir. İl ərzində 234 imkansız ailəyə ünvanlı sosial yardım verilmişdir. Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin vəsaiti ilə İmişli şəhərində 54 mənzilli yaşayış binası inşa olunur. Tikintidə son tamamlama işləri görülür. 23 kilometrlik İmişli-Otuziki-Qaraqaşlı avtomobil yolunun çəkilişi də başa çatmaq üzrədir.

Əhalinin fasiləsiz elektrik enerjisi, təbii qaz və içməli su ilə təmin edilməsi hamıda razılıq doğurur, minnətdarlıqla qarşılanır. Keçən il təbii qaz istifadəçilərinin ümumi sayı əhali sektoru üzrə 24739 olmuşdur. Rayonun 37 yaşayış məntəqəsi tam qazlaşdırılmışdır.

Kəndlərin su təchizatını yaxşılaşdırmaq, əhalini ekoloji cəhətdən təmiz içməli su ilə təmin etmək məqsədilə rayonun 46 kəndində modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır. Hazırda daha 4 kənddə - Murğuzalılı, Mürsəlli, Ağcüyür və Gövhərlidə belə qurğular quraşdırılır. Bundan əlavə, Prezidentin sərəncamına əsasən, Rəsullu, Məhəmmədli, Göbəktala və Şahverdili kəndlərində yeni su xətləri çəkilmiş, İmişli şəhərinin bütün məhəllələri içməli su ilə təmin olunmuşdur.

İndi İmişli rayonunda kənd əməkçilərini cari ilin qayğıları düşündürür. Pambıqçılıqda keçən il yol verilmiş nöqsanların aradan qaldırılmasına, tarlaların yüksək məhsuldarlığına nail olmaq üçün bütün qüvvələr, imkan və ehtiyat mənbələri səfərbər edilmişdir. Torpaq istifadəçiləri ilə pambıq zavodları arasında müqavilələr bağlanılır, pambıq əkiləcək sahələr arata qoyulur.

**_Lazım QULİYEV, “Azərbaycan”_**



# Qayğı, diqqət və zəhmətin bəhrəsi

## *Lənkəran yenə nümunə göstərir*



Keçən əsrin 90-cı illəri hər birimizin yaxşı yadındadır. Özbaşınalıq, xaos, hərc-mərclik baş alıb gedirdi. Yaranmış silahlı qruplaşmaların qorxusundan böyük şəhərlərdə, xüsusilə Bakıda əhali hava qaralandan sonra küçəyə çıxa bilmirdi. Vəziyyətdən istifadə edən Ermənistan Qarabağ bölgəsindəki rayonlarımızı işğal etdilər. Həmin rayonların əhalisi köməksiz, dövlət tərəfindən müdafiəsiz qaldıqlarını görüb, üzü şərqə doğru köç etməyə məcbur oldular. Yerli əhalinin igid oğlanları dədə-baba torpaqlarının müdafiəsinə qalxsalar da, vahid rəhbərlik, vahid müdafiə planı, dövlət səviyyəsində komandanlıq, kifayət qədər silah-sursat olmadığından qazandıqları döyüş uğurlarını sona qədər əldə saxlaya bilməyib geri çəkilməkdən başqa çıxış yolu tapmadılar. Neçə-neçə igidlərimiz bu qeyri-bərabər savaşda canlarını Vətənə qurban verib şəhidlik zirvəsinə yüksəldilər.

Eyni zamanda ölkə iqtisadiyyatı dağılıb gedirdi. Bütün sahələrdə istehsal dayanmışdı. Qıtlıq başlamışdı. Dağıstandan, Qazaxıstandan ərzaq üçün yaramayan az miqdarda taxıl gətirilirdi. İran İslam Respublikası ilə sərhəddə yerləşən rayonların işbazları isə kolxoz, sovxoz, idarə, müəssisələrin texnikalarını, mal-qarasını Astaradan o taya keçirib dəyər-dəyməzinə dəyişirdilər.

Özlərini “demokratik blok” kimi qələmə verən AXCP-Müsavat birliyi çevriliş yolu ilə hakimiyyətə gəlsələr də, səriştə və bacarıqları olmadığı üçün ölkəni idarə edə bilmədilər. İqtidarda olduqları vaxt vəzifə üstündə çəkişmə-didişmə saldılar. Bununla da xalqın onlara inamı, etimadı sıfıra enmiş oldu.

Ölkəmiz ölüm-dirim yolunun ayrıcında idi. Bütün xalq sovetlər zamanında respublikaya rəhbərlik etmiş, iqtisadi, mədəni baxımdan onu inkişaf etdirmiş, SSRİ məkanında öncül sıralara çıxarmış, Moskvada məsul vəzifədə işlədiyi zaman hər gün öz xalqının müqəddəratı ilə maraqlanmış, tarixin çətin sınaqlarından mətanətlə, cəsarətlə çıxmış Heydər Əliyevi yenidən hakimiyyətə çağırdı. Lakin bəzi qüvvələr bunun qarşısını almaq üçün hər cür vasitələrə əl atdılar. “Haqq incələr, ancaq üzülməz” deyiblər. 1993-cü ilin iyun ayında ulu öndər Heydər Əliyev Naxçıvandan Bakıya qayıtdı. Öncə Milli Məclisin Sədri, sonra Prezident seçildi.

O illər bütün sahələri yenidən qurmaq lazım gəlirdi. Heydər Əliyev bu işlərin bilicisi, mahir ustası idi. Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini işləyərkən xalqımızın bu böyük oğlunun istedadına, polad iradəsinə, yorulmaq bilmədən işləmək qabiliyyətinə ətrafdakılar heyran qalırdılar.

Ümummilli lider hakimiyyətə qayıdanda barışıq, sülh, milli birlik məsələlərini ön plana çəkdi. Çünki qaynar qazanı xatırladan respublikada bunsuz heç nəyə nail olmaq mümkün deyildi. Bütün bunlara baxmayaraq, Azərbaycan addım-addım irəliləmək, müstəqilliyini möhkəmləndirmək yoluna qədəm qoydu. Yaranan sabitlik ölkə vətəndaşlarında nikbinlik, sabaha inam yaratdı. Dəyişikliyi yaxın və uzaq xarici ölkələrin siyasətçiləri və iş adamları da qiymətləndirməyə başladılar.

“İqtisadiyyatsız siyasət yoxdur” deyiblər. Buna görə də ulu öndər ölkə iqtisadiyyatını dirçəltmək, əhalinin sosial rifah halını yüksəltmək məqsədilə uzunmüddətli, davamlı strategiya işləyib hazırlamağa və həyata keçirməyə başladı. Bu, ilk növbədə, neft sənayesinə aid idi. 1994-cü ilin sentyabr ayının 20-də tarixə “Əsrin müqavləsi” adı ilə düşən saziş imzalandı. Dünyanın ən məşhur neft şirkətləri respublikamızda yaranan sabitliyi görüb həmin sahəyə böyük həcmdə sərmayə qoymağa başladılar. Paralel olaraq iqtisadiyyatın digər sahələrində həlli vacib olan islahatlar həyata keçirildi. Dövlətçiliyimiz günbəgün möhkəmləndi. O zaman ölkəmizdə gedən bu prosesi əkilən ağaca, salınan bağa bənzətmək olardı. Torpağa əkilən hər hansı ting, körpə fidan meyvə vermir, xüsusi qulluq və qayğı nəticəsində bir neçə ildən sonra bara düşür.

Məşhur neft müqaviləsi bəhrəsini verməyə başladı. Neftdən gələn ilk gəlirlər öz dədə-baba torpağından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına, ordu quruculuğuna, regionların sosial-iqtisadi inkişafına, neft kapitalının insan kapitalına çevrilməsinə yönəldi. Azərbaycan sürətli inkişaf yoluna qədəm qoydu.

Qısa zaman kəsiyində elektrik stansiyalarının tikilib istifadəyə verilməsi həmin sahədəki mövcud çətinliyi aradan götürdü. Ölkəmiz bu sahədə idxalçı ölkədən ixracçıya çevrildi. Nəhəng qurğuları hərəkətə gətirməyə qadir olan elektrik enerjisi vasitəsilə yeni texnika və texnologiyalarla qurulmuş sənaye müəssisələrimiz işə salındı. Şəhərlərimiz, kəndlərimiz nura boyandı, evlərimiz qızındı. Mədəniyyət məsələləri prioritet sahə kimi ön plana çəkildi. Ölkədə 3 min 100-dən çox məktəb, 642 tibb müəssisəsi, habelə 43 Olimpiya idman kompleksi tikildi. İndi bilikli, intellektual səviyyəsi durmadan yüksələn gənclərimiz elm və təhsil sahəsində ürəkaçan nəticələr qazanırlar.

Ölkəmiz eyni zamanda mədəni tədbirlərin keçirildiyi məkana çevrildi. Bakıda, Qəbələdə, Masallıda, digər şəhərlərimizdə keçirilən beynəlxalq səviyyəli festivallar, konsertlər aləmə səs saldı. İndi Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanınır. I Avropa, IV İslam Həmrəyliyi Oyunlarının respublikamızda keçirilməsi hadisə oldu. Azərbaycan təbiəti, Bakının gözəlliyi, xalqımızın mehribanlığı, qonaqpərvərliyi turistləri, qonaqları valeh etdi, onların qəlbində silinməz izlər buraxdı.

Regionlarımız da 14 il ərzində davamlı şəkildə inkişaf etmişdir. 2004-cü ildən bu yana qəbul olunan 3 dövlət proqramı bu inkişafın, tərəqqinin lokomotivi olmuşdur. Cənub mirvarisi Lənkəran da ötən zaman kəsiyində yüksəliş yolu keçərək tanınmaz dərəcədə dəyişmiş, yeniləşmişdir. Qeyd edək ki, ölkə miqyasında ilk Olimpiya İdman Kompleksi, Müalicə Diaqnostika Mərkəzi, Beynəlxalq Hava Limanı, Uşaq Müalicə Mərkəzi burada inşa olunmuşdur. Regionlar arasında ilk dəfə olaraq açıq ürək əməliyyatı Lənkəran Müalicə Diaqnostika Mərkəzində aparılmışdır. Bir-birinin ardınca məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları tikilib istifadəyə verilmiş, yollar çəkilmiş, yeni parklar, xiyabanlar salınmış, istehsal sahələri yaradılmış, istehsal olunan kənd təsərrüfatı və sənaye məhsullarının həcmi ilbəil artmış, yaşayış səviyyəsi yüksəlmişdir.

Bu inkişaf ötən il də davam etmişdir. 2017-ci ildə rayonda ümumi məhsul buraxılışı əvvəlki illərə nisbətən 9,1 faiz artaraq 449 milyon manat təşkil etmişdir. Sənaye müəssisələrində 2016-cı ilə nisbətən 20 faiz çox, yəni 31,7 milyon manatlıq məhsul istehsal olunmuşdur. İl ərzində sənaye müəssisələrində 3 min 198 ton meyvə-tərəvəz konservi, 851,9 ton çörək, 3 min 484,8 ton qablaşdırılmış çay, 3,6 ton kərə yağı, 178 ton pendir və kəsmik, 2 min 434,8 litr süd, 1956 kubmetr kərpic istehsal edilmişdir. Ötən il həmçinin rayonda çəltik zavodu, 5 ulduzlu “Xəzər Palace” hotel kompleksi, Ələt-Astara yolunun 22,2 kilometrlik Lənkəran-Masallı hissəsi istifadəyə verilmişdir.

Aqrar sahədəki uğurlar da inkişafın yeni mərhələyə qalxdığını sübut edir. Keçən il rayonda 73 min 972 ton tərəvəz, 4 min 872 ton kartof, 3 min 851 ton taxıl, 17 min 877 ton meyvə tədarük edilmişdir. Yeni çay plantasiyaları salınmış, 241 ton yaşıl çay yarpağı yığılmış və 1,1 milyon manat gəlir əldə edilmişdir. Çay plantasiyalarında son vaxtlar daha 300 nəfər daimi işlə təmin olunmuşdur. Ötən il bölgənin iqlim şəraitinə uyğun olaraq ilk dəfə Cənubi Koreyadan çəltik şitilləri gətirilmiş və bitkilərin ən müasir texnika və texnologiya ilə əkilb-becərilməsi təşkil edilmişdir. Nəticədə 1815 ton yüksək keyfiyyətli, ekoloji cəhətdən təmiz məhsul istehsal edilmiş və 4,4 milyon manat gəlir götürülmüşdür. Rayonda 2 müasir çəltik emalı zavodu tikilmişdir. Lənkəran düyüsü respublikamızın əhalisi tərəfindən böyük rəğbətlə qarşılanır. Bu məhsulun “Made in Azerbaijan” brendi olaraq xarici ölkələrə ixracı ilə bağlı işlər aparılmaqdadır.

Sitrus meyvəçiliyinin inkişafı üçün ötən il buradakı “Gilan Aqro” MMC tərəfindən 100 hektar sahədə xaricdən gətirilən yeni növ sitrus bağları salınmış, 200 nəfər daimi işlə təmin edilmiş, həmin bağlardan nübar məhsul yığılmışdır. Ümumilikdə isə ötən il rayondakı 1282 hektar sitrus bağlarından 12 min 900 ton məhsul yığılmış və ondan 7,7 milyon manat gəlir əldə olunmuşdur. Unudulmaqda olan kənd təsərrüfatı sahələrinin dirçəldilməsi ilə əlaqədar çəltikçiliklə yanaşı, baramaçılığın inkişafına da diqqət artırılmışdır. Bu məqsədlə 64,7 min ədəd tut tingi əkilərək onlara aqrotexniki qulluq göstərilir.

Rayon əhalisinin elektrik enerjisi və təbii qazla təmin edilməsi sahəsində işlər ötən il də davam etdirilmişdir. Elektrik təsərrüfatı genişləndirilərək yeniləşdirilmiş, rayon üzrə qazlaşdırma 93,6 faizə çatmışdır. Təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə də əsaslı dönüş yaranmışdır.

Lənkəranlılar qazandıqları bu nailiyyətləri keçən il dekabr ayının sonlarında keçirdikləri “Çay, çəltik, sitrus” festivalında nümayiş etdirdilər. Heydər Əliyev xatirə parkında təşkil edilən tədbir əsl el şənliyinə çevrildi. Rayonun ayrı-ayrı fermerləri, mülkiyyətçiləri, kollektivləri əldə etdikləri nailiyyətləri nümayiş etdirdilər. İncəsənət ustalarının çıxışları festivalı daha da rövnəqləndirdi, adamlarda xoş ovqat yaratdı.

**_Seyran CAVADOV, “Azərbaycan”_**

# ERMƏNİ SEPARATİZMİNİN 30 İLLİYİ



# Kazimirovun KVAZİBARIŞIĞI - erməni işğalçıları üçün "müqəddəs yazı"

Bu yaxınlarda erməni millətçiləri qondarma "Artsax azadlıq hərəkatı"nın 30 illiyini təntənə ilə qeyd etməyə cəhd göstərdilər. Mən "təntənəli bayramlar" haqqında məlumat tapmaq üçün internetdə axtarış sistemlərini ələk-vələk etdim. Kiçik yığıncaq haqqında bir-iki qeyddən savayı heç nə tapmadım. Onların birində hansısa Artsaxın müstəqilliyi haqqında hansısa memorandum qəbul etmiş bir qrup adamın Moskvada yığışmasından söhbət gedirdi. Oxucu soruşur, bəs oraya yığılan kimlər idi? Adları sadalamaq istəmirəm, çünki buna layiq deyillər. Bir sözlə, işğalçılar və onların züy tutanları. Sadəcə "X" işarəsini basıb brauzerdə bu səhifəni bağlamaq və daha real mütaliəyə keçmək olardı. Lakin qondarma memorandumun məntiqsizliyi yan ötməyə qoymadı.



Bax belə, yığıncaq iştirakçıları "azadlıq hərəkatının" 1988-ci ildən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında müraciətlə başlandığını söyləyirdilər - əlbəttə, onu əvvəlcə Azərbaycandan ayırmaqla. Diqqət yetirək, AZADLIQ sözü işlədilir. Yəni onlar, görürsünüz ki, ayrıca respublika deyil, Ermənistana BİRLƏŞDİRİLMƏYİ istəyirdilər. Birləşməyi kimlərin istəməsi aydındır, şübhəsiz ki, bu, Qarabağın sadə erməniləri deyil, "baş ofisi" Yerevanda yerləşən, "böyük Ermənistan" xülyaları ilə yaşayan erməni millətçiləri idi. Başqasının torpağını qoparmaq və onu özününkünə (hərçənd özününkü olub-olmaması da, indiki Ermənistanın Azərbaycanın tarixi torpaqlarında yaradıldığı nəzərə alınsa, mübahisəli məsələdir) birləşdirmək arzusunu "azadlıq hərəkatı" adlandırmaq absurddur. Doğrudur, erməni millətçilərində təfəkkür həmişə absurd olub. Ona görə də biz bunu onlar üçün yazmırıq. Faydasızdır. Bunu həmin yığıncağın özünü politoloq, diplomat hesab edən, guya həqiqət tərəfdarları olan iştirakçıları üçün yazırıq.

Beləliklə, 1988-ci ildə proses qondarma "azadlıq hərəkatı" ilə deyil, Ermənistan SSR tərəfindən Azərbaycan ərazilərinin əsl ilhaqı ilə başlandı. Sonra, bu cənablar yazırlar ki, Azərbaycan 1918-ci ildə guya Ermənistana və Dağlıq Qarabağa ərazi iddiası irəli sürüb. Təəccüblüdür, onlar buna qədər nə düşünüblər?! Dağlıq Qarabağ heç vaxt ermənilərin olmayıb. Abbasqulu ağa Bakıxanovun təsvir etdiyi Qarabağ xanlığında XVIII əsrin hadisələrində ermənilərin oraya köçürülməsindən əvvəl və sonra bu xanlığı yalnız azərbaycanlılar idarə ediblər. Bütün bunları əks etdirən sənədlər Rusiya arxivlərindədir. Özü də hansı iddiadan danışmaq olar ki, hələ o zaman Azərbaycanın qərb ərazilərinin böyük hissəsi Ermənistana keçmişdi, bu barədə də kifayət qədər sənədlər var. Biz artıq adət etmişik ki, ermənilər özləri tarix uydurur, sonra öz yalanlarına özlərini inandırır və başqalarını da buna inanmağa məcbur etməyə cəhd göstərirlər. Lakin söhbət tarixi məqamlarda deyil, başqa məsələdədir...

Ermənistan KİV-i separatçıların yığıncağında Vladimir Kazimirovun - 1992-1996-cı illərdə ATƏT-in Minsk qrupunun həmsədrinin iştirakını xüsusi sevinclə qeyd ediblər. İşğalçıların izlərini ört-basdır etməkdə, müsaidənizlə deyim, bu diplomatın xidmətləri hamıya məlumdur. O, özünü sülh tərəfdarı kimi göstərir. Lakin Kazimirovun KVAZİBARIŞIĞI həmişə erməni millətçilərinin əsl məqsədini - Azərbaycan ərazilərinin Ermənistan tərəfindən, əlbəttə, başqalarının köməyi ilə işğalının həqiqi mahiyyətini gizlətməyə yönəlib.

Necə olur ki, Azərbaycanın işğal edilmiş ərazilərinin beynəlxalq hüquq əsasında azad olunmasına dəvət edilmiş sabiq həmsədr işğalın ildönümünün faktiki qeyd olunduğu yığıncaqda iştirak etməyi özünə rəva görə bilir. Azərbaycan öz ərazisindən erməni qoşunlarının çıxarılmasını ciddi tələb edəndə, münaqişənin hərb yolu ilə həllinin qətiyyətlə danışanda Kazimirov fəallaşdırılır. O da müəllifi olduğu KVAZİBARIŞIĞINI yada salır. Yeri gəlmişkən, 1994-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin hücum əməliyyatları Ermənistan rəhbərliyini çox qorxuya salanda Kazimirov yalançı sülhün baş tutması üçün əlindən gələni etmişdi. O zaman onun vəzifəsi münaqişəni dondurmaq idi. Əgər o, ədalətli vasitəçi olsaydı, Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılması barədə BMT qətnamələrinin icrasına nail olardı, heç olmasa, buna cəhd göstərərdi. Bax, onda əsl sülhə nail olunardı.

2016-cı ildə Azərbaycan Ordusunun uğurlu aprel əks-hücum əməliyyatı zamanı Kazimirov yenə arenada göründü. Şükür Allaha, bu dəfə vasitəçi kimi yox. Lakin o, öz ampluasında idi: Azərbaycanı gərginlik eskalasiyasına və digər mövcud olmayan günahlara görə ittiham etdi. Kazimirov yaxşı başa düşür ki, Azərbaycan 1994-cü ildəki Azərbaycan deyil. Azərbaycan Ordusu erməni işğalçılarını ildırım zərbəsi ilə Yer üzündən silməyə qadirdir. Buna görə də, Kazimirov düşünür ki, hay-küy salmaq, insanları çaşdırmaq, qəbul edilmiş beynəlxalq sənədlərin mahiyyətini təhrif etmək lazımdır. Uzaq 1994-cü ildə onun məqsədi müvəqqəti barışıq bəhanəsilə Azərbaycana öz ərazilərini heç zaman hərb yolu ilə geri almağa imkan verməmək idi. Bu KVAZİBARIŞIQ əslində regionu 25 ildir gərginlik altında saxlayır. Əgər Kazimirov əsl sülh istəsəydi, heç olmasa BMT-nin qətnamələrinin icrasına nail olmağa çalışardı. Bunun əvəzinə o, öz saxtasını uydurdu ki, bu da heç nəyi dəyişmədi. İndi isə o, hər dəfə ermənilərin göstərişi ilə deyilənləri təkrarlayır və Azərbaycanı öz torpaqlarını hərb yolu ilə almaq fikrinə görə ittiham edir. Lakin diplomatik cəhdlər nəticə vermirsə, istənilən beynəlxalq sənəd torpaqları işğal edilmiş ölkənin onu güc yolu ilə almaq hüququnu təsdiqləyər.

Erməni millətçiləri yaxşı bilirlər ki, heç bir müstəqil Qarabağ yoxdur və olmayacaq. Onlar həmişə vahimə içində yaşamalı və qorxmalıdırlar ki, günlərin birində Azərbaycan öz zərbəsi ilə bütün işğalçı ordunu darmadağın edəcək. Qoy kazimirovlar Azərbaycanın hansısa KVAZİBARIŞIĞA razılıq verəcəyinə ümid bəsləməsinlər.

# ABŞ-dakı erməni lobbisinin rəhbərlərindən biri Xocalı qətliamının Ermənistan qoşunları tərəfindən törədildiyini etiraf edib

Amerikadakı radikal erməni lobbisinin təhriki ilə Kaliforniya Ştat Senatında fevralın 28-də keçirilən, Sumqayıt hadisələrinin 30-cu ildönümünə həsr olunan dinləmələrdə lobbi nümayəndəsi tərəfindən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həqiqətə uyğun olmayan, qərəzli və təhrif edilmiş məlumatlar səsləndirilib.




AZƏRTAC xəbər verir ki, dinləmələrin ardınca zalda əyləşənlər şərh və suallar verməyə dəvət olunublar. Kaliforniyada yaşayan Azərbaycan icmasının gənc üzvləri faktlara əsaslanan çıxışlar edərək səsləndirilən yalan məlumatları ifşa ediblər. Onlar həm senatorları, həm də çıxış edən erməni lobbisinin nümayəndəsini sıxışdıraraq, Sumqayıt hadisələrinə toxunulduğu halda niyə heç bir yerdə Xocalı faciəsi, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində doğma torpaqlarından didərgin düşmüş 1 milyon qaçqın və məcburi köçkün haqqında bəhs edilmədiyi, nəyə görə Azərbaycan icmasından heç kimin çıxış üçün dəvət olunmadığı və məsələlərə birtərəfli yanaşıldığı ilə bağlı suallar ünvanlayıblar. Çətin vəziyyətdə qalan və hər vəchlə suallara cavab verməkdən yayınan senator Entoni Portantinonun köməyinə erməni icmasının üzvləri yetişməyə çalışıblar.

Şərh edənlərdən biri, Amerika Erməni Assambleyasının ABŞ-ın qərb regionu üzrə direktoru Mihran Tumacan çıxışında həm özünü, həm də bütün erməniləri çətin vəziyyətə salaraq Ermənistanın Xocalıda dinc azərbaycanlı əhaliyə qarşı qırğın törətdiyini etiraf edib və dolaşıq fikirləri ilə əslində özlərini ifşa edib. Onun çıxışından həmin hissəni olduğu kimi təqdim edirik: "Mən burada azərbaycanlı tələbələrin səsləndirdiyi fikirlərə cavab vermək istəyirəm. Onlar yanlış olaraq Xocalıda baş verənləri soyqırımı adlandırırlar. Orada baş verənlər soyqırımı deyil, faciədir. Gənc yaşında həlak olmuş tanınmış azərbaycanlı jurnalist Çingiz Mustafayevin faciə yerindən çəkdiyi videolar açıq-aydın göstərir ki, Ermənistan silahlı qüvvələri Xocalıda yaşayan azərbaycanlıları öncədən xəbərdarlıq etmişdi ki, Xocalıda ... (dili dolaşır) gərgin döyüşlər gedəcək. Bundan başqa, Ermənistan qoşunları mülki əhalinin sərbəst çıxması üçün dəhliz də açmışdı. Çoxlu azərbaycanlı bu dəhlizdən keçib gedə bildi, ancaq bir çoxu da keçə bilmədi. Çingiz Mustafayev və hadisə yerindən reportajlar hazırlayan digər azərbaycanlı jurnalistlər də qeyd ediblər ki, çoxlu sayda azərbaycanlı məhz o dəhlizdən keçmədikləri üçün öldürülüblər".

Faktiki olaraq erməni lobbisinin Amerikadakı rəhbərlərindən biri olan bu şəxs Xocalıda azərbaycanlıların Ermənistan silahlı qüvvələri tərəfindən qətlə yetirilməsini etiraf edərək bu cinayətə öz aləmində haqq qazandırmaq üçün çox gülünc arqumentdən istifadə edib. Axı günahsız və dinc insanların, qadınların, körpə uşaqların, qocaların ölümünə necə haqq qazandırmaq olar?

# Ermənistanın yeni prezidenti seçildi

## Yerevanda vəziyyət gərginləşir, hakim rejim istefaya çağırılır

***Əvvəli 1-ci səh.***



Politoloq Ayk Xalatyan bildirir ki, Ermənistan müxalifəti 2015-ci il Konstitusiya referendumundan həmişə narazı olmuşdur. Xatırladaq ki, 2015-ci ildə qəbul olunmuş Ermənistan konstitusiyasına əsasən, ölkə prezidenti əvvəlki qaydada birbaşa seçki vasitəsilə deyil, parlament üzvləri tərəfindən seçilir. Namizədin seçilməsi üçün deputatların 75 faizi onun lehinə səs verməlidir. Səsvermənin birinci turunda qalib müəyyən edilməzsə, ikinci tur keçirilir və qələbə üçün lehinə verilən səslərin 60 faizi kifayət edir. İkinci turda da nəticə əldə edilməzsə, prezidenti deputatların ümumi sayının yarısından çoxu seçə bilər.

Aydındır ki, bu islahatlar əslində Serj Sarkisyanın hakimiyyətinin qorunması üçün həyata keçirilmişdir. Bildirildiyi kimi, yeni prezident ancaq mərasim funksiyalarını icra edəcək.

Bundan əlavə hakim Respublikaçılar partiyası hazırda baş nazirin maraqları naminə yeni prezidentin səlahiyyətlərini daha da məhdudlaşdırmaq üçün qanunvericilikdə dəyişikliklər edir. Bu halda prezident Ermənistan Milli Təhlükəsizlik Şurasının üzvü ola bilməyəcək. Şuraya isə bundan sonra baş nazir başçılıq edəcək. Əfvlə bağlı fərmanları da prezident deyil, hökumət başçısı imzalayacaq.

Politoloqun fikrincə, yeni prezidentin namizədliyi Serj Sarkisyanın son illər həyata keçirdiyi siyasətə tam uyğundur. Belə ki, cəmiyyətdəki narazılığı daha da artırmamaq üçün əsas vəzifələrə adları indiyədək qalmaqallarda çəkilməyən, lakin hakimiyyətlə sıx əlaqəsi olan adamlar təyin edilir.

Ermənistan Beynəlxalq münasibətlər və təhlükəsizlik institutunun eksperti Ruben Meqrabyan da ölkənin parlament idarəetmə formasına keçidi ilə bağlı prezidentin səlahiyyətlərinin xeyli ixtisar olunduğunu qeyd edir. Serj Sarkisyan Armen Sarkisyana kürsüsünü təklif etsə də, əslində ona nə icra hakimiyyətinin rıçaqlarını, nə də ki, iqamətgahını verir. Dəyişən ancaq addır...

Yeni prezident siyasi meydanda hansısa bir fəaliyyət göstərmək imkanına malik deyil. Meqrabyan bildirir ki, Armen Sarkisyanı xalq seçməyib. Onu parlament seçmişdir və faktiki olaraq parlamentə də hesabat verəcək. "Nəzərə almaq lazımdır ki, Armen Sarkisyan sistemin adamıdır və bu sistem onu öz iradəsi ilə nəyisə dəyişmək üçün deyil, guya ki, nəyinsə dəyişdiyi barədə təsəvvür yaratmaq üçün vəzifəyə gətirmişdir" - deyə politoloq qeyd edir.

Yenicə prezident seçilmiş Sarkisyan artıq ilk xarici səfərini planlaşdırır. O, martın 5-də ABŞ-a, Los Ancelesə yollanaraq oradakı erməni icması ilə görüşmək niyyətindədir. Bununla bağlı yerli "Jamanak" qəzeti yazır ki, Sarkisyanı Amerikada xoşagəlməz sürprizlər gözləyə bilər. Çünki ermənilər prezident kimi ondan nəsə tələb edəcəklər. A.Sarkisyanın isə heç bir səlahiyyəti yoxdur və onun bu cür görüşləri təşkil etməyinin səbəbi anlaşılmır.

Ölkədə isə vəziyyət gərgin olaraq qalır. Yerevanda 2008-ci il 1 mart hadisələri qurbanlarının xatirəsinə mitinq keçirilmişdir. O vaxt baş vermiş qanlı toqquşmada dinc sakinlər öldürülmüş, yüzlərlə adam xəsarət almışdır. Mitinq iştirakçıları cinayətkar rejimin istefasını tələb etmiş, saxta seçkilərə, ölkədəki ağır sosial-iqtisadi vəziyyətlə bağlı etiraz səslərini ucaltmışlar. "Yelk" partiyasının sədri Nikol Paşinyan bildirir ki, hakimiyyətdə olanlar çirkin məqsədlərinə çatmaq üçün daim gücdən, terrordan istifadə etmişlər. Partiya sədrinin dediyinə görə, 1 mart hadisələri qurbanları Ermənistanda prezident seçkisindən sonra saxtakarlıqlara qarşı səslərini qaldıran dinc sakinlər idi. Serj Sarkisyan isə zor gücünə hakimiyyəti ələ keçirmiş və 10 il ərzində ölkə rəhbəri kimi üzərinə düşən funksiyaları yerinə yetirə bilməmişdir.

İndi kriminal Serj Sarkisyan rejimi yenidən hakimiyyətdə qalmaq üçün heç bir partiyanın iştirak etmədiyi alternativsiz saxta prezident seçkilərinin uğurla keçirildiyini bəyan edir.

Ermənistan hakimiyyəti növbəti niyyətini həyata keçirsə də, xalq və müxalifət proseslərin bu səpkidə getməsi ilə heç vaxt razılaşmayacaq. Qarabağda minlərlə azərbaycanlının, türkün, rusun, yəhudinin və digər millətlərin nümayəndələrinin qətlində birbaşa iştirak etmiş Serj Sarkisyan və onun cinayətkar rejimi həm də öz xalqının qanını axıtdığına görə gec-tez cavab verməli olacaq.

***R.CƏFƏROV,***
***"Azərbaycan"***

# Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar İtaliya Senatının kitabxanasında "Ağrı" kitabının təqdimatı olub

Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar İtaliya Senatının kitabxanasında israilli müəlliflər Əmir və Arye Qutun İtaliyada "Sandro Teti Editore" nəşriyyat evi tərəfindən italyan dilinə dərc olunmuş "Ağrı" (İl Dolore) bədii-sənədli romanının təqdimatı keçirilib.



AZƏRTAC xəbər verir ki, İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyasının təşəbbüsü və Azərbaycanın İtaliyadakı səfirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və "Sandro Teti Editore" nəşriyyat evinin birgə təşkilatçılığı ilə keçirilmiş tədbirdə İtaliya parlamentinin, dövlət qurumlarının, Romada akkreditə olunmuş diplomatik korpusun, İtaliyanın elmi-akademik, intellektual, mədəniyyət dairələrinin, dini icma təşkilatlarının, kütləvi informasiya vasitələrinin nümayəndələri, azərbaycanlı tələbələr iştirak ediblər.

Tədbiri açan "Sandro Teti Editore" nəşriyyat evinin və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İtaliya nümayəndəliyinin rəhbəri Sandro Teti "Ağrı" kitabının italyan dilində nəşr edilməsində məqsədin Azərbaycanın multikultural ənənələri, eyni zamanda Azərbaycan xalqının məruz qaldığı, bəşəriyyətin müasir tarixinin ən qanlı səhifələrindən olan Xocalı faciəsi barədə İtaliya ictimaiyyətinin məlumatlandırılması olduğunu deyib və kitab barədə məlumat verib.

İtaliya parlamentində İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyasının sədri, Senatın müdafiə komissiyasının sədr müavini senator Sercio Divina uzun illərdir ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün, Azərbaycan torpaqlarının işğalının davam etdiyini, etnik təmizləmə nəticəsində qaçqın və məcburi köçkün düşmüş azərbaycanlıların öz torpaqlarına qayıtmaqdan məhrum edildiyini bildirib. O, BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini xatırladaraq bu təcavüzün dayandırılması, Azərbaycanın ərazi bütövlüyünün bərpası, Xocalı soyqırımı qurbanlarının ədalətə qovuşması üçün dünya ictimaiyyətinin öz səsini daha yüksəkdən söyləməsinə ehtiyac olduğunu deyib.

Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə Azərbaycan xalqının zəngin multikultural ənənələrə, yüksək qonaqpərvərlik xüsusiyyətlərinə malik olduğu, bəşəri dəyərlərin qorunmasına vacib töhfələr verdiyi halda tarixən haqsızlıqlarla və ədalətsizliklərlə üzləşdiyini bildirib. O, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, etnik təmizləməyə məruz qalan bir milyondan çox azərbaycanlının öz yurd-yuvalarından didərgin salınması və dinc azərbaycanlı əhaliyə qarşı müharibə cinayətləri, o cümlədən Xocalı soyqırımının törədilməsi və bütün bunları törədən Ermənistana qarşı təzyiqin göstərilməməsinin ikili standartların bariz nümunəsi olduğunu deyib. Ədalətin bərpa olunması, təcavüzün dayandırılması və bu kimi cinayətlərin təkrarlanmaması üçün "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyasının əhəmiyyətindən danışan səfir "Ağrı" bədii-sənədli romanının bu xüsusda dəyərli mənbə olduğunu deyib. Kitabın müəllifləri olan Əmir və Arye Quta təşəkkürünü bildirən səfir bu nəşrin münaqişə ilə bağlı həqiqətlərin və Azərbaycan xalqının üzləşdiyi ədalətsizliyin İtaliya ictimaiyyətinə çatdırılmasında yardımçı olacağına ümid etdiyini deyib. Səfir bu il İtaliyanın ATƏT-ə sədrliyinin Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına töhfə verməklə bağlı Azərbaycan tərəfinin gözləntilərinə də toxunub.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov "Ağrı" kitabının və əsərdə göstərilən faktların Xocalı soyqırımı ilə bağlı həqiqətlərin işıqlandırılması baxımından mühüm əhəmiyyətə malik olduğunu bildirib. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və onun nəticələri barədə məlumat verən Etibar Nəcəfov bu təcavüz nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin işğal olunduğunu, 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü vurğulayıb. O, Xocalıda baş vermiş soyqırımının Ermənistan qoşunlarının dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi cinayətlərin kulminasiya nöqtəsi olduğunu deyib, bu soyqırımının pislənilməsinin və onu törədənlərin cəzalandırılmasının vacibliyini bildirib. Bu xüsusda, "Xocalıya ədalət!" beynəlxalq kampaniyası, bir sıra ölkələrin qanunvericilik orqanları, eləcə də bu yaxınlarda Avropa Parlamenti tərəfindən qəbul edilmiş sənədlərə toxunan şöbə müdiri bütün bunların Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması nöqteyi-nəzərindən əhəmiyyətini bildirib. Etibar Nəcəfov təqdim olunan kitabın, həmçinin Azərbaycanda multikultural ənənələrin qorunub saxlanması və yüksək tolerantlıq mühitinin mövcudluğundan da bəhs edildiyini deyib, Azərbaycan dövlətinin bu sahədə apardığı uğurlu siyasətdən söz açıb.

"Ağrı" bədii-sənədli romanının həmmüəllifi olan Arye Qut əsərin yazılması səbəbləri haqqında danışaraq əsas məqsədin dünya ictimaiyyətinə Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı və ötən əsrin ən dəhşətli etnik təmizləmələrindən biri olan, 1992-ci il fevralın 26-da Xocalıda dinc azərbaycanlı əhalinin məruz qaldığı soyqırımı haqqında geniş məlumat vermək olduğunu bildirib. O, əsərin real hadisələrə, Xocalı qətliamını yaşamış şahidlərin söylədikləri faktlara əsaslandığını bildirərək kitabda Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi qətliam, vəhşiliklər və digər cinayətlərin üzə çıxarılması və günahkarların cəzalandırılması üçün çağırış edildiyini diqqətə çatdırıb. İsrail vətəndaşı olmasına baxmayaraq, Azərbaycanda doğulduğunu və Azərbaycanı da öz doğma vətəni kimi sevdiyini bildirən həmmüəllif bu səbəbdən Xocalı şəhərində törədilmiş qanlı soyqırımı aktının özünün şəxsi ağrı-acısı, şəxsi faciəsi olduğunu qeyd edib. Arye Qut monoetnik ölkə olan Ermənistandan fərqli olaraq, Azərbaycanda daim müxtəlif mədəniyyətlərə və dinlərə məxsus insanların dinc yanaşı yaşadıqlarını, ölkədə multikultural dəyərlərə hər zaman hörmət edildiyini və qorunub saxlanıldığını bildirərək romanın qəhrəmanları vasitəsilə yəhudilər və azərbaycanlıların da oxşar tarix və taleyə malik qardaşlar kimi həmişə birgə yaşadıqlarını bildirib. O, Azərbaycanda heç vaxt təqib, qırğın və antisemitizm faktlarının olmadığını, multikulturalizmin və tolerantlığın həyat tərzi olduğunu vurğulayıb.

Sonda tədbirin bədii hissəsi çərçivəsində "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyasına dəstək olaraq kinorejissor Vaqif Mustafayevin çəkdiyi "Dərdimi çəkirəm" filmi nümayiş olunub, habelə aktrisa Olqa Mazzinanın ifasında "Azərbaycan şairələrinin antologiyası" kitabından Qarabağdan olan azərbaycanlı şairələrin şeirləri səsləndirilib.

## "Azərişıq"ASC müxtəlif interyer avadanlıqlarının satın alınması üzrə *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT-1**

**Müxtəlif interyer avadanlıqlarının satın alınması.**

Tenderdə iştirak haqqı - **300 manat.**

**"Azərişıq" ASC**
**VÖEN:** **9900069391**
**Hesab №:** **AZ83AIIB33020029441802068118**
**Benefisiarın Bankı:** **Kapital Bankın Gənclik filialı**
**Kod:** **200189**
**VÖEN:** **9900003611**
**Müxbir hesab №:** **AZ37NABZ01350100000000001944**
**SWIFT Code:** **AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Rövşən Əsgərov
Telefon: 440-39-93 daxili (22-33)

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (**www.tender.gov.az**).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 18 aprel 2018-ci il saat 15:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 25 aprel 2018-ci il saat 15:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına - Ümumi İşlər İdarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 26 aprel 2018-ci il tarixində saat 16:00-da Ələsgər Qayıbov küç. 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

## "AzerGold" QSC təhsil ocaqları ilə əməkdaşlığı davam etdirir

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Azərbaycanın təhsil ocaqları ilə əməkdaşlığı davam etdirir. 2018-ci il üçün müəyyən edilən fəaliyyət planı çərçivəsində fevral ayında "AzerGold" QSC-nin inzibati binasında Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU), həmçinin Azərbaycan Texniki Universitetinin (ATU) tələbələri ilə görüş təşkil olunub. Müvafiq təlimatlandırılma və məlumatlandırılmadan sonra tələbələr Çovdar filiz emalı sahəsində təcrübə keçmək üçün Daşkəsən rayonuna yollanıblar. Çovdar filiz emalı sahəsində tələbələr geologiya, dağ-mədən və inşaat mühəndisliyi peşələri sahəsində praktik təcrübə toplayacaq, bu peşələri dərindən öyrənəcək. Tələbələrin qalması, qidalanması, işləməsi və tibbi müayinədən keçməsi üçün Çovdar filiz emalı sahəsində hər bir şərait yaradılıb.



Bununla yanaşı, fevralın 23-də ADNSU-da "AzerGold" QSC-nin mütəxəssisləri tələbələr üçün Azərbaycanın geoloji kəşfiyyatı və əlvan metal sənayesi haqqında geniş təqdimat keçib, tələbələri maraqlandıran çoxsaylı sualları cavablandırıblar.

Fevralın 27-də "AzerGold" QSC-nin insan resurslarının idarəolunması şöbəsinin mütəxəssisləri ADNSU-nun tələbələrinə CV-nin tərtib edilməsi, müsahibədə davranış qaydaları haqqında ətraflı məlumat veriblər.

Fəaliyyət planına uyğun olaraq, martın 2-də "AzerGold" QSC-nin mütəxəssisləri ADA Universiteti tərəfindən təşkil edilən 6-cı karyera yarmarkasında iştirak ediblər.Cəmiyyətin nümayəndələri yarmarka iştirakçılarına "AzerGold" QSC-nin fəaliyyəti, mövcud vakansiyalar və təcrübə proqramları haqqında ətraflı məlumat veriblər. Cəmiyyətin fəaliyyəti və təklif etdiyi imkanlar yarmarka iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

---

### Tenderə dəvət

*Təkrar*

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçiriləcək tenderin predmetini LOT-1 "Mal-materialların satın alınması" təşkil edir

*Yuxarıda qeyd edilənlərin yerinə yetirilməsi üçün açıq tender müsabiqəsinə təklifi verərkən həcmlər yerində dəqiqləşdirilərək qiymətləndirilir*

Malların qəbulu mövcud qanunvericiliyə və qüvvədə olan normativ aktlara müvafiq olaraq həyata keçiriləcəkdir.

Müsabiqədə qələbə üçün əsas şərt malların qiyməti, keyfiyyəti və təhvil verilmə müddəti, təşkilatın aidiyyəti işlərdə təcrübəsi, ixtisaslı kadrların mövcudluğu və peşəkarlığı, maliyyə imkanları hesab olunur.

Tender proseduru 12 aprel 2018-ci il saat 11:00-da Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçiriləcəkdir. Ünvan: Səbail rayonu, Cənub buxtası, 3 (Bibiheybət Gəmi Təmiri Zavodunun ərazisi). Tel.: (055) 355-78-58.

**Tenderdə iştirak etmək arzusunda olan iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyətini əks etdirən bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının hüquqi statusunu təsdiq edən sənədlər və lisenziyası;*
- *iddiaçının potensial imkanları, ixtisas göstəriciləri və son 3 ildə aidiyyəti işlər üzrə fəaliyyəti haqqında texniki-iqtisadi məlumatlar;*
- *iddiaçı təklifin qiymətinin 1 (bir) faizi məbləğində (təklif zərfləri açıldığı gündən sonrakı 60 bank günü ərzində qüvvədə olan) bank təminatı təqdim etməlidir.*

İddiaçı öz tender təklifi və bank təminatının 11 aprel 2018-ci il tarixdə saat 17:00-dək Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində yaradılmış tender komissiyasına təqdim olunmasını təmin etməlidir. Gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçı tender təkliflərində tender predmetini səciyyələndirən bütün parametrləri, o cümlədən işin icrasının texniki cəhətlərini, icra müddətini, dəyərini, hesablaşma formasını göstərməlidir.

Malgöndərən (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 3 aprel 2018-ci il saat 17:00-dək tender komissiyasına təqdim etməlidir.

İddiaçının yazılı şəkildə hazırladığı tender təklifi iki zərfə qoyulmalı və hər iki zərfin bağlı tərəfi iddiaçı tərəfindən imzalanıb möhürlənməlidir. Tender təklifi - 1 ədəd əsli, 1 ədəd surəti ikiqat zərfə daxil edilərək imzalanmış, möhürlənmiş şəkildə olmalıdır. Zərfin üzərinə "12 aprel 2018-ci il saat 11:00-a qədər açılmamalıdır" sözləri yazılmalıdır. Tender təklifləri açıldığı gündən sonrakı 30 bank günü ərzində qüvvədə olmalıdır. İddiaçılar tender təkliflərinin qəbulu və əlavə məlumat almaq üçün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində yaradılmış tender komissiyasının sədrinə və yaxud əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: Rüstəm Veysov. Tel.: (055) 355-78-58.

İddiaçının tender təklifi bütün zəruri vergi və rüsumlar nəzərə alınmaqla hesablanmalıdır.

Tenderdə iştirak edən iddiaçılar Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinə yazılı müraciətdən və Lot üzrə 100 manat iştirak haqqı ödədikdən sonra tenderin əsas şərtlər toplusunu ala bilərlər.

Tenderdə iştirak haqqını hesaba köçürmək üçün bank rekvizitlərini müraciət zamanı hərbi hissədən ala bilərsiniz.

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi, Səbail rayonu, Cənub buxtası, 3 (Bibiheybət Gəmi Təmiri Zavodunun ərazisi). Tel: (055) 355-78-58.

***Tender komissiyası***

---

## Novruz bayramı ilə əlaqədar Bakı və Sumqayıtda satış yarmarkaları açılacaq

Novruz bayramı ilə əlaqədar Bakı və Sumqayıt şəhər əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına artan tələbatının daha dolğun ödənilməsi və istehlakçıların seçim imkanlarının artırılması, süni qiymət artımının, möhtəkirliyin qarşısının alınması məqsədilə martın 17-dən 20-dək fasiləsiz olaraq dörd gün müddətində Kənd Təsərrüfatı Nazirliyi tərəfindən kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının keçirilməsi nəzərdə tutulub.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yarmarkalar aşağıdakı ünvanlarda təşkil olunacaq:

**Bakı şəhəri üzrə:**

*1. Xətai rayonu:*
- Məzahir Rüstəmov küçəsi, Bakı kinoteatrının yaxınlığı;

*2. Nərimanov rayonu:*
- Keşlə bazarının ərazisi;

*3. Səbail rayonu:*
- Badamdar qəsəbəsi, Seyran Məmmədov küçəsi 1, məktəbin arxası;

*4. Suraxanı rayonu:*
- Əmircan qəsəbəsi, Malik Mustafayev küçəsi 4, 3 saylı Xüsusi Təyinatlı Mənzil-Kommunal Təsərrüfat Birliyinin yanı;

*5. Binəqədi rayonu:*
- Dərnəgül, Koroğlu Rəhimov küçəsi 53, Elit Ticarət Mərkəzinin yaxınlığı.

**Sumqayıt şəhəri üzrə (2 yerdə):**
- 12-ci mikrorayon;
- köhnə avtovağzalın yanı.

Nazirliyin məsul əməkdaşlarından ibarət işçi qrupları yarmarkalara təhkim olunub və onlar satılan məhsulların keyfiyyətinə, istehlak üçün yararlı və təhlükəsiz olmasına, qiymətlərin tənzimlənməsinə daim nəzarət edəcəklər. Satışa çıxarılan bitki və heyvan mənşəli məhsulların fitosanitar və baytarlıq nəzarətindən keçirilməsi, müayinələrin vaxtında aparılması üçün yarmarkalar səyyar avtolaboratoriyalarla təmin olunacaq.

---


Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 06.03.2018-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


---

## ELAN

"Azərbaycan" qəzeti redaksiyası Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 77.1-ci və 83.6-cı maddəsinin tələblərinə uyğun olaraq prezident seçkilərində seçkiqabağı təşviqat aparılması üçün hər həftə pulsuz əsaslarla 5 səhifə, ödənişli əsaslarla 5 səhifə yer ayırmışdır. Ödənişli əsaslarla ayrılmış yerin hər kvadratsantimetrinin qiyməti 2 AZN-dir.

---

***24.12.1990-cı il tarixdə Ədliyyə Nazirliyi tərəfindən 20 Yanvar Fonduna verilmiş Nizamnamə və Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

---

## ELAN

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədilə günərzi mərkəzlərin xidmətinin göstərilməsi (Yevlax rayonu üzrə)" və "Sağlamlıq imkanları məhdud uşaqlar üçün (Sumqayıt, Balakən, İmişli, Kürdəmir şəhər və rayonları üzrə) icma əsaslı sosial reabilitasiya mərkəzlərinin fəaliyyətinin təşkili", "Məişət zorakılığından zərər çəkmiş uşaqlara yardım mərkəzinin yaradılması" və "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə sosial xidmətlər sahəsində icra edilən layihələrin müstəqil monitorinqi və qiymətləndirilməsi" adlı təkrar müsabiqələr keçirir.

Müsabiqələrdə qeyri-hökumət təşkilatları iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqələrin əsas şərtlər toplularını və texniki tapşırıqlarını əldə etmək üçün Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına yazılı müraciət edə bilərlər.

Müsabiqələrdə iştirak edən təşkilatların təklifləri Salatın Əsgərova küçəsi, 85 ünvanına 15 mart 2018-ci il saat 18:00-dan gec olmayaraq təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqələr 16 mart 2018-ci il saat 11:00-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçiriləcəkdir. Əlaqə telefonu: (012) 596-44-09.

***Müsabiqə Komissiyası***

---

## ELAN

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Milli Qəhrəmanların tanıdılması kampaniyasının təşkili", "Əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud uşaqlara diqqət və qayğının artırılması üzrə təbliğat kampaniyasının təşkili", "Sağlamlıq imkanları məhdud uşaqlar üçün ailə tipli kiçik qrup evlərin fəaliyyətinin təşkili" və "Əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların əlillik problemi ilə bağlı informasiya təminatı" adlı təkrar müsabiqələr keçirir.

Müsabiqələrdə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqələrin əsas şərtlər toplularını və texniki tapşırıqlarını əldə etmək üçün Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına yazılı müraciət edə bilərlər.

Müsabiqələrdə iştirak edən təşkilatların təklifləri Salatın Əsgərova küçəsi, 85 ünvanına 15 mart 2018-ci il saat 18:00-dan gec olmayaraq təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqələr 16 mart 2018-ci il saat 11:00-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçiriləcəkdir. Əlaqə telefonu: (012) 596-44-09.

***Müsabiqə Komissiyası***

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Daxili İşlər Nazirliyinin Kollegiya üzvləri və şəxsi heyəti nazir general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov və Prokurorluğun kollektivi daxili işlər naziri general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova atası

**MƏMMƏD CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin rəhbərliyi və kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin direktoru Qəzənfər Əhmədov və agentliyin kollektivi daxili işlər naziri Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Həmkarları İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev yanğın nəticəsində

**RESPUBLİKA NARKOLOJİ MƏRKƏZİNDƏ HƏLAK OLANLARIN**

vəfatından kədərləndiyini bildirir və onların ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Komitənin kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Ağır Cinayətlər Məhkəməsinin kollektivi Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova atası

**MƏMMƏD CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin kollektivi Qəbələ rayon qeydiyyat şöbəsinin rəisi Zinyət Bağırovaya atası

**BƏXTİYAR ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Bakı Metropoliteni" QSC-nin rəhbərliyi və kollektivi daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Fazil Məmmədov daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin sədri İslam Əliyev Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova atası

**MƏMMƏD CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin kollektivi məhkəmənin sədri İlham Cəfərova atası

**MƏMMƏD CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan " qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan " nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8916
Sifariş 571